www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 mart 2016-cı il Çərşənbə axşamı № 48 (6369) Qiymyəti 60 qəpik

**Xəbər**

## Bakıda daha iki avtobus qəzası - 2 ölü

yazısı səh.2-də

## Avropa və ABŞ-ın enerji bosları Azərbaycanda bir masada

# QƏRB BAKINI KREMLƏ QARŞI GÜCLƏNDİRİR

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində enerji nazirlərinin ikinci toplantısında önəmli mesajlar; Rusiyadan yan keçən strateji qaz kəmərlərinin inşası sürətləndirilir; **Prezident İlham Əliyev:** "Bu, ölkələrin milli təhlükəsizliyinin bir hissəsidir..."




yazısı səh.5-də

## Azərbaycan Rusiya-Türkiyə "mehriban düşmənçiliyi"nin məngənəsində - mühasirə daralır...

Ankara-Moskva münasibətlərində artan gərginlik Bakının manevrlərini ağırlaşdırır; **rusiyalı politoloq Putinin Əliyevə son zəngləri barədə:** "Əminəm, o, İlham Əliyevin Türkiyə əleyhinə addımlar atmasına çalışır..."

yazısı səh.8-də

**Gündəm**

### Yol hərəkəti ilə bağlı cərimə tətbiqi qaydaları və məbləğləri dəyişdi



Sürücülər üçün 80 manat və 4 ballıq qayda pozuntusu müddəası ləğv edildi

yazısı səh.11-də

### Müxalifətdən "yaz hücumu" açıqlamaları

yazısı səh.3-də

### Siyasi məhbuslarla bağlı say müəmması

yazısı səh.6-da

### "Facebook statusunda 200-300 bəyənməsi olan fəalları nəzarətə alırlar"

yazısı səh.7-də

### "Siyasi məhbusların azad olunması İlham Əliyevin Vaşinqton səfərini daha sanballı edə bilər..."

yazısı səh.9-da

### Hafiz Hacıyev Trampa bənzədilməsindən danışdı

yazısı səh.10-da

### Kasıb Şahdağa çıxdı; əməkdaşımız bir günlük "Şahdağ" turunda nələr yaşadı...

yazısı səh.12-də

### Mənzil bazarında qiymətlər ilin sonunadək enməkdə davam edəcək

yazısı səh.15-də

### Bu gün Od çərşənbəsidir

yazısı səh.14-də

### Moskvanın Ermənistanı silahlandırması bölgəyə fəlakət vəd edir

yazısı səh.13-də

### Azərbaycanda Qərbə maraq niyə azalıb - ekspertlər danışır

yazısı səh.10-da



### Sərdar Həmidov işğaldan qoruduğu Tərtərdə torpağa tapşırıldı

yazısı səh.4-də



*Fəzail Ağamalı:*

### "Artur Rasi-zadəni Davudoğlundan daha yuxarı dövlət məmuru hesab edirəm"

yazısı səh.3-də



*Vüqar Bayramov:*

### "Amerika ilə "yeni model" müzakirələrin intensivləşməsi müsbət haldır"

yazısı səh.6-da



## Gömrük Komitəsinin əməkdaşlarının maaşı artırıldı

**"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 25 fevral tarixli fərmanında dəyişiklik edilib.**

Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Dəyişikliyə əsasən, gömrük sisteminin büdcədənkənar inkişaf fonduna daxil olan vəsaitin 50 faizi Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə olunacaq.

İndiyədək bu rəqəm 25 faiz idi.

Sərəncamla Nazirlər Kabinetinə (NK) Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Prezidentə təqdim etmək, NK-nın Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Prezidentinə məlumat vermək tapşırılıb.

Sərəncam 2016-cı il martın 1-dən qüvvəyə minir.

## İTV-nin əməkdaşı intihar edibmiş

**İctimai Televiziyanın (İTV) itkin düşmüş əməkdaşı Rəşad Əliyevin meyiti tapılıb. Səbayel Rayon Polis İdarəsindən verilən məlumata görə, R.Əliyevin meyiti "Cristall hall" yaxınlığında dənizdə aşkar edilib. 1973-cü ildə anadan olmuş Rəşad Fikrət oğlu Əliyev 23 yanvar 2016-cı il tarixdə Bakı şəhərinin Bülbülə qəsəbəsindəki yaşadığı evdən çıxaraq bir daha geri qayıtmayıb. O, İctimai Televiziyada quruluşçu rejissor vəzifəsində çalışıb. R.Əliyev əməkdar incəsənət xadimi Fikrət Əliyevin oğludur. İlkin versiyaya görə, R.Əliyev intihar edib.**

Yada salaq ki, fevralın 9-da Yasamal rayonunda 23 yaşlı Nigar Vahabova yaşadığı mənzildə özünü asıb. N.Vahabova intihardan əvvəl valideynlərinə məktub yazıb. O, məktubunda valideynlərindən üzrxahlıq edib, etdiyi əmələ görə onu bağışlamalarını istəyib. Gənc qız ata-anasını incitdiyini və buna görə çox məyus olduğunu qeyd edib. Bildirilir ki, N.Vahabova Kooperasiya Universitetinin 3-cü kurs tələbəsi olub. Son vaxtlar onların ailəsində müəyyən problemlər, eləcə də maddi sıxıntılar varmış. Əvvəlcə N.Vahabovanın təhsil haqqını ödəməyə ailəsinin imkanı olmadığına görə intihar etdiyi xəbəri yayılsa da, az sonra bu xəbər təsdiqini tapmayıb. N.Vahabova jurnalist, İTV-nin əməkdaşı Aytac Vahabovanın bacısıdır. Hər iki faktla bağlı Cinayət Məcəlləsinin 125-ci(özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

❑ E.HÜSEYNOV

### Başsağlığı

Rauf Arifoğlu və "Yeni Müsavat" media qrupunun kollektivi
Sərdar Həmidovun
vəfatından kədərləndiyini bildirir,
mərhumun ailəsinə və qardaşı İsgəndər Həmidova
başsağlığı verir

***

Qarabağ Ağsaqqallar Şurası - Asif Məmmədli, Calal Allahverdiyev, professor Telman Əliyev, professor Yusif Səmədov və Nizami Hacıyev
Sərdar Həmidovun
vəfatından kədərləndiklərini bildirir,
mərhumun ailəsinə və qardaşı İsgəndər Həmidova
başsağlığı verirlər


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur


# Pənah Hüseynin İsa Qəmbər haqda dediklərinə Müsavatdan reaksiya gəldi

## "Bəzi məsələlər var ki, ola bilər Pənah bəy onun bu gün həyata keçməsini istəyir"

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn moderator.az-a müsahibəsində Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbər haqqında maraqlı açıqlamalar verib. "Əbədi kimi görünən İsa Qəmbər-Pənah Hüseyn müttəfiqliyi niyə pozuldu" sualına cavabında P.Hüseyn deyib ki, 2014-cü ilin sonlarından etibarən, bir sıra siyasi - taktiki xarakterli və konyuktur olan məsələlərdə onunla İsa Qəmbər arasında fikir ayrılıqları olub. Amma şəxsi münasibətlərdə və İsa bəyin şəxsinə münasibətində heç bir dəyişiklik yoxdur və ola da bilməz:**



"Mən belə hesab edirəm ki, İsa Qəmbər bu gün ənənəvi müxalifətin həyatda olan, meydanda olan ən ciddi fiqurudur. Həmçinin də mən milli demokratik düşərgənin hazırkı duruma gəlməsinin və içində olduğu problemlərin birinci məsuliyyətinin İsa Qəmbərin üzərində olduğu qənaətindəyəm. Mən o fikirdəyəm ki, bu problemlərin həlli üçün İsa bəy özünün malik olduğu imkanlardan yetərincə istifadə eləmir".

**P.Hüseynin İ.Qəmbər haqqında dediklərinə Müsavat Partiyası başqanının müavini Elman Fəttah münasibət bildirib. "Yeni Müsavat"a açıqlamasında E.Fəttah bildirdi ki, Pənah Hüseyn müstəqil siyasətçidir və İsa Qəmbəri uzun illərdir yaxından tanıyır:** "Pənah Hüseyn doğru buyurur ki, bu gün də İsa Qəmbər müxalifətin meydanda olan ən ciddi fiqurudur. Bundan sonrakı dövrdə ölkədə gedən siyasi proseslərin təşkilatçılığı və liderliyi İsa Qəmbərin rəhbərliyi ilə keçəcək. O ki qaldı məsuliyyət məsələsinə, burada da mən qeyri-adi bir şey görmürəm. İsa bəy özü də açıqlamalarında dəfələrlə qeyd edib ki, o, Azərbaycanın dövlətçiliyi üçün məsuliyyət daşıyan bir insandır. Mən də hesab edirəm ki, ölkədəki vəziyyəti dəyişmək imkanları və qabiliyyəti də, həmçinin məsuliyyəti də Müsavatın üzərindədir. Düşərgənin lideri kimi də əlbəttə, bu prosesləri aparmaq imkanları və məsuliyyəti İsa Qəmbərin üzərindədir".

**P.Hüseynin "Bu problemlərin həlli üçün İsa bəy özünün malik olduğu imkanlardan yetərincə istifadə eləmir" fikrinə isə Müsavat rəsmisi belə münasibət bildirdi:** "Bu da Pənah bəyin baxışıdır.O hesab edir ki, İsa bəy daha böyük işlər görə bilər. Hər şeyin zamanı var. Bəzi işlər var ki, ola bilər Pənah bəy onun bu gün həyata keçməsini istəyir. Amma İsa bəy qərarları düşünərək qəbul edir, addımları zamanında atmağı doğru hesablayır. Hər şeyin öz zamanı var".

❑ E.SEYİDAĞA

## Baş həkim barəsində cinayət işi başlandı

**Gəncə şəhər Psixonevroloji Dispanserinin baş həkiminin qanunsuz hərəkətləri barədə daxil olmuş şikayət Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Bu barədə "Report"a Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Araşdırmalar zamanı dispanserin baş həkimi Yaşar Əliyevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək özü və ya üçüncü şəxslər üçün qanunsuz olaraq maddi və sair nemətlər əldə etmək məqsədilə dispanser qeydiyyatında olan və ya ümumiyyətlə dispanser qeydiyyatında olmayan ayrı-ayrı şəxslərin pensiyaya qanunsuz çıxarılması məqsədilə müvafiq sənədlərin verilməsi üçün ümumilikdə 7000 manat və 12 min 600 ABŞ dolları məbləğində pulu rüşvət kimi almasına şübhələr üçün əsaslar olduğundan barəsində Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələri ilə cinayət işi başlanıb.

Hazırda aşkar edilmiş faktlar üzrə istintaq tədbirləri davam etdirilir.




## Neft Fondunun icraçı direktoru MHŞT üzrə konfransda iştirak edib

**2016-cı il 24-25 fevral tarixlərində Perunun Lima şəhərində Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünə dair (MHŞT) VII Qlobal Konfrans keçirilib. MHŞT üzrə hökumət Komissiyasının sədri, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümovun başçılıq etdiyi nümayəndə heyəti konfransda iştirak edib. Bu barədə müsavat.com-a fonddan məlumat verilib.**

Konfrans çərçivəsində MHŞT üzrə Beynəlxalq İdarə Heyətinin 32 və 33-cü iclasları keçirilib. Beynəlxalq İdarə Heyəti tərəfindən MHŞT Standartlarına dəyişikliklər edilib, iki ölkəyə (Dominikan Respublikası və Almaniya Federativ Respublikası) namizədlik statusu verilməsi qərara alınıb. Beləcə, MHŞT-ni tətbiq edən ölkələrin sayı 51-ə yüksəlib. 4 ölkə (Konqo Demokratik Respublikası, Qana, Monqolustan və Filippin) 2016 MHŞT Mükafatına layiq görülüb.

Konfrans çərçivəsində, həmçinin, Beynəlxalq İdarə Heyətinə seçilmiş yeni üzvlər və Beynəlxalq İdarə Heyətinin yeni sədri, cənab Frederik Raynfeld konfrans iştirakçılarına təqdim edilib.

"Aşağı xammal qiymətləri dövründə idarəetmənin təkmilləşdirilməsi" adlı paneldə iştirak edən Ş.Mövsümov Azərbaycanın bu sahədə təcrübəsinə dair çıxış edib.

Eyni zamanda VII Qlobal Konfrans çərçivəsində MHŞT üzrə Milli Sərgi keçirilib və Azərbaycan nümayəndə heyəti həmin sərgidə iştirak edib. Milli Sərgidə Azərbaycana aid video və foto materiallar, MHŞT-nin Azərbaycanda tətbiqinə dair müxtəlif broşür və kitabçalar, hesabatlar, xatirə hədiyyələri konfrans iştirakçılarına təqdim olunub.

MHŞT xüsusi çoxtərəfli və şirkətlər, hökumətlər, sərmayəçilər və vətəndaş cəmiyyəti təşkilatları tərəfindən dəstəklənən könüllü təşəbbüsdür. MHŞT neft, qaz və mədən hasilatı sahəsində şəffaflığın təmin edilməsində qlobal standartdır. Azərbaycan MHŞT prosesinə 2003-cü ildə qoşulmuşdur. MHŞT-nin tətbiqi sahəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycana "2009-cu il MHŞT mükafatı" təqdim edilib.

## Bakıda daha iki avtobus qəzası - 2 ölü

**Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğu paytaxtın mərkəzində ölümlə nəticələnən hadisə ilə bağlı rəsmi məlumat yayıb.**

Musavat.com-un məlumatına görə, fevralın 27-də saat 16:30 radələrində Sumqayıt şəhər sakini Orxan Novruzov idarə etdiyi "Daewoo" markalı, 10 TC 493 dövlət qeydiyyat nişanlı avtobusla paytaxtın Parlament prospektində hərəkətdə olarkən piyadalar - Bakı şəhər sakini, 1980-cı il təvəllüdlü Səadət Hüseynova və onun 2000-ci il təvəllüdlü qızı Nurane Hüseynovanı vurub, nəticədə S.Hüseynova aldığı xəsarətlərdən Kliniki Tibbi Mərkəzdə vəfat edib, N. Hüseynovanın müalicəsi isə davam etdirilir.

Faktla bağlı Səbayel RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma) maddəsi ilə cinayət işi başlanıb.

Aparılmış istintaqla yol nəqliyyat hadisəsinin O.Novruzov tərəfindən törədilməsinə əsaslı şübhələr olduğundan, o, tutularaq istintaqa cəlb olunub.

Dünən səhər saatlarında isə evdən çıxan 7 yaşlı Nicat və 14 yaşlı Ələm Cəfərzadə qardaşlarını 172 saylı marşrut xətti ilə hərəkət edən "Daewoo" markalı sərnişin avtobusu vurub.

Musavat.com-un məlumatına görə, hadisə zamanı qardaşlardan başqa daha bir neçə məktəbli olub. Amma avtobusun zərbəsinə iki qardaş tuş gəlib. Maşınlardan birinin piyadalara yol verdiyini gözdən qaçıran sürücü avtobusu saxlaya bilməyib. O, çıxış yolunu maşını ağaca çırpmaqda görüb. Ağacın altında isə Nicat və Ələm Cəfərzadə qardaşları dayanıbmış.

Qəza nəticəsində 14 yaşlı Ələm Cəfərzadə ağacla avtobusun arasında qalıb. Onun qardaşı isə zərbənin təsirindən bir neçə metr kənara düşüb. 14 yaşlı Ələmin aldığı xəsarətlər ağır olduğundan, o, hadisə yerində dünyasını dəyişib. 7 yaşlı Nicat isə xəstəxanaya çatdırılıb.

Hadisəni törədən avtobus sürücüsü, Zodanov Bəxtiyar Nəsrəddin oğlu saxlanılıb.

Qeyd edək ki, bu, Cəfərzadələr ailəsinin başına gələn ilk bədbəxt hadisə deyil. Bir neçə il öncə ailənin yeznəsi də həmin yerdə avtomobil vurması nəticəsində dünyasını dəyişib.

14 yaşlı Ələm Cəfərzadə ata yurdu olan Şamaxıda dəfn ediləcək.


### Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 48 (6369) 1 mart 2016




# Müxalifətdən “yaz hücumu” açıqlamaları

## Sərdar Cəlaloğlu: “Azərbaycanda iqtisadi böhran dərinləşəcəksə...”
## Arzuxan Əlizadə: “İstənilən qığılcım ölkə üçün nəticəsi heç də xoş olmayan hadisələrin başlanmasına rəvac verə bilər”

**Bu gündən yaz ayları başlayır. Adətən Azərbaycanda seçki ili deyilsə, siyasi hərarətin yaz aylarında yüksəldiyi müşahidə edilib. Müxalifət düşərgəsinin yaz ayları üçün hansı planlarının olub-olmadığı, “yaz hücumu”nun nəzərdə tutulub-tutulmadığını araşdırdıq.**

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, havaların istiləşməsi əslində insanlarda passivlik yaranması ilə müşahidə olunur. Ona görə də isti iqlimdə yaşayan xalqlarda siyasi aktivlik olmur. Azərbaycanda da yazın gəlişi ilə siyasi aktivliyin yaranacağı gözlənilən deyil: “Düşünürəm ki, yaz-yay aylarında siyasi passivlik olacaq. Dünyanın əksər ölkələrində inqilablar məhz soyuq aylarda olub. Azərbaycanda iqtisadi böhran dərinləşəcəksə, ola bilsin ki, mart ayından etibarən sosial aktivlik müşahidə olunsun. Amma bütövlükdə partiyaların fəaliyyətində xüsusi fərqli dəyişikliklər olacağını düşünmürəm. Şəxsən bizim partiya fəaliyyətini mövsümə əsaslanıb qurmur”.

**Müsavat başqanının müavini Elman Fəttah bildirdi ki, partiya 2016-cı il üçün qəbul etdiyi fəaliyyət planında bu ili mühüm dəyişikliklər ili elan edib və fəaliyyətini bu plan əsasında qurub:** “Müsavat hazırda intensiv şəkildə zona müşavirələri keçirir. Bütün rayon təşkilatlarımızla görüşlər keçirilir, ölkədə ictimai-siyasi vəziyyətin müzakirəsi aparılır. 2016-cı il üçün fəaliyyət planı üzrə tapşırıqlar təşkilatlara çatdırılır. Əlbəttə, ölkədə gedən proseslər onu göstərir ki, əhalinin narazılığı gün-gündən artır. Yaxın zamanlardan etibarən bu narazılıqlar etiraz müstəvisinə keçəcək. Müsavat Partiyası da bu proseslərin Azərbaycan dövlətinin maraqları çərçivəsində getməsi, ölkədə demokratik dəyişikliyə aparan istiqamətdə getməsi üçün fəaliyyət göstərmək əzmindədir. Siyasətini də bu istiqamətdə qurub. Siyasi temperatur yaxın zamanlarda qalxacaq. Müsavat Partiyası Azərbaycanda baş verəcək dəyişikliklərə hazırlaşır”.

**VİP sədri Əli Əliyev qeyd etdi ki, yaz aylarının gəlişi təbiətin, onun ayrılmaz hissəsi olan insanların da, toplumların da həyatında oyanma, dirçəlmə, canlanma yaradır. Canlı orqanizmlərin fizioloji olaraq bioritmlərlə idarə olunması elmi gerçəklikdir. Amma siyasi həyatı mövsümiləşdirmək yanlış yanaşma olardı:** “Partiya olaraq, təqvim planımızı tərtib edən zaman təşkilatı işləri gücləndirməyi zamanımız yetsə, yazın sonlarında qurultay keçirməyi planlaşdırırıq. VİP-in daxil olduğu siyasi mərkəzlərin də-Siyasi Əməkdaşlıq Mərkəzi və Antiböhran Koalisiyasının da müəyyən planları mövcuddur. Lakin bu planlar daha çox siyasi reallıqlara uyğun tərtib edilir. Düzdür, təbii şərait öz korrektələrini edir. Məsələn, qarşıdan gələn dövrdə hava şəraitini nəzərə alaraq, açıq havada keçirilən tədbirlər planlaşdırırıq. Bunun üçün təşkilati heyət də müəyyənləşib. Bildiyim qədər, ”hücum" məqsədli işlərimiz yoxdur. Hakimiyyətin tirajladığı səhvlərə ən ciddi “hücum”lar da məhz koalisiyadan gəldi və yəqin ki, bu prinsipial mövqe davamlı olacaq. Hesab edirəm ki, siyasi hərarət hakimiyyətin yaxın dövrdə atacağı addımlardan asılı olacaq. Azərbaycan çox turbulentli mərhələyə qədəm qoyub. İstəməzdim ki, bu pikedən “hücum”lar və ya “qaynar” hava şəraitində çıxmaq məcburiyyətində qalaq".





**AMİP baş katibi Arzuxan Əlizadə bildirdi ki, təmsil etdiyi partiyanın ayrıca olaraq yaz ayları üçün deyil, ənənəvi olaraq birinci yarım il üçün Siyasi Şurada təsdiq olunmuş cari fəaliyyət planı var. Bu plan partiya quruculuğu, rayon təşkilatları ilə, gənclərlə əlaqəli fəaliyyət, AMİP-in beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi də daxil olmaqla, bir sıra məsələləri özündə ehtiva edir:** “Havaların isinməsi ilə ölkənin siyasi həyatında canlanma yaranacağı ehtimalını isə qəbul etmirəm. Hesab edirəm ki, siyasi fəaliyyət mövsümi xarakter daşımamalı, davamlı və ardıcıl olmalıdır. Amma çox təəssüflər olsun ki, ölkədə ümumiyyətlə siyasi partiyalaşma institutuna çox ciddi zərbə vurulub. Siyasi partiyaların normal fəaliyyət göstərmələri üçün şərait minimuma endirilib. Bu səbəbdəndir ki, bu gün faktiki olaraq YAP da daxil olmaqla, mövcud partiyaların ölkənin siyasi həyatına təsir imkanları yox dərəcəsindədir. Bu isə əslində nə qədər paradoksal olsa da, hakimiyyəti daha çox narahat etməlidir. Həm də bugünkü iqtisadi böhran və hökumətin antiböhran proqramının olmadığı indiki halda bu amil xüsusilə təhlükəlidir. Çünki istənilən qığılcım ölkə üçün nəticəsi heç də xoş olmayan hadisələrin başlanmasına rəvac verə bilər. Siyasi partiyaların mövcud durumunda isə arzuolunmaz vəziyyətin qarşısının alınması çox çətin olacaq. Hesab edirəm ki, ölkə rəhbərliyi bunun fərqində olmalıdır”.

❑ E.SEYİDAĞA

# Bir doğum günü, iki fərqli baş nazir

## Fəzail Ağamalı: “Artur Rasi-zadəni Davudoğlundan daha yuxarı dövlət məmuru hesab edirəm”

**Fevralın 26-da Azərbaycanın baş naziri Artur Rasi-zadənin 81, Türkiyənin baş naziri Əhməd Davudoğlunun 57 yaşı tamam oldu. Hər iki ölkənin baş nazirinin doğum günlərinin fonunda onların yaşı müqayisə edilərək, Davudoğlunun daha çevik, işlək olduğu deyildisə, Rasi-zadənin yaşlı olması müzakirə obyektinə çevrildi.**


Artur Rasi-zadə


Əhməd Davudoğlu

Azərbaycanın ikinci səlahiyyətli şəxsi postsovet məkanında, eləcə də Cənubi Qafqazda ən yaşlı vəzifə sahibi olaraq daim mətbuatın gündəmində olur. Hər hansı bir ölkədə baş nazir dəyişikliyi olan kimi, ilk göz önünə gələn isim Rasi-zadə olur.

Heç şübhəsiz ki, yaşlı nazirin tez-tez gündəm olmasının səbəblərindən biri də onun passiv fəaliyyətinin müşahidə olunması, mətbuata çıxmaması, yalnız ara-sıra dövlət iclaslarında sükutu pozmasıdır...

**İqtidaryönlü deputat Fəzail Ağamalı deyilənlərlə razılaşmır. O hesab edir ki, Rasi-zadə üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirir:** “O yetərincə yüksək intelekti olan vətənpərvər, son dərəcə təmiz imici olan dövlət məmurudur. Hökumət üzvlərinin fəaliyyətini peşəkarlıqla əlaqələndirə bilir. Prezidentin hökumət qarşısına qoyduğu vəzifələrin öhdəsindən məharətlə gəlir. İdarəçilik sistemi kifayət qədər məsuliyyətlidir. Burada sədaqətli, vətənini sevən insanların olması vacibdir. Ölkə başçısı bununla bağlı konkret addımlar atmaqdadır. Yaxınlarda Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə gənci rəhbər təyin etdi. Yer boşaldıqca, yeni kadrlara ehtiyac duyulur. İdarəçilikdə yaşlı nəsli kənara qoymaq olmaz. Onların biliyi, təcrübəsi son dərəcə əhəmiyyətlidir. Bu baxımdan yaşlı, enerjisi tükənməyən şəxslərin idarəçilikdə olmaları vacibdir. Yaşlıları çıxar, gəncləri gətir kimi fikirlər düzgün yanaşma deyil. Kim ki işləyə bilmir, səhhətində problem var, etimadı itirib, o şəxsləri uzaqlaşdırmaq lazımdır. Amma Artur Rasi-zadə son dərəcə dəyərli bir məmurumuzdur. Müsbət keyfiyyətlərinə görə o, uzun müddətdir baş nazir işləyir. Bundan sonrakı fəaliyyətində ona cansağlığı, uğurlar arzulayıram. Bir sıra məsələlərlə bağlı ona xahişlərim olub. Problemləri ona deyəndə dərhal reaksiya verərək, uyğun addımlar atır. Salyandakı problemlərlə bağlı ondan nə xahişim olubsa, dərhal yerinə yetirilib. Orada Xıdırlı kəndi var. İnsanlar sözün həqiqi mənasında suya görə olmazın zülmü çəkirdilər. Bununla bağlı Artur müəllimin yanına getdim. Onun tapşırığından sonra ora müasir texnologiyalı ən yüksək su xətti çəkildi. Bu gün həmin kənd su problemi yaşamır. Artur müəllimlə bağlı xırda bir misal çəkdim. Bütün millət vəkillərinin xahişinə o, çox həssaslıqla yanaşır. Onun üçün xalqa, dövlətə xidmətdən ali heç nə yoxdur. Bunu tam məsuliyyətlə deyirəm. Arzu edirəm ki, o yüz il yaşasın”.

**Deputat baş nazirin Davudoğlundan üstün siyasətçi olduğunu söylədi:** “Davudoğlu ilə Artur müəllimin müqayisəsini qüsurlu hesab edirəm. Təbii ki, Davudoğlu qardaş ölkənin baş naziridir. O da üzərinə düşən vəzifələri uğurla yerinə yetirir. Türkiyə dövlətinə əhəmiyyətli töhfələr verir. Açığı, Artur Rasi-zadəni Davudoğlundan daha yuxarı dövlət məmuru hesab edirəm. Çünki ən çətin məqamlarda, xoşagəlməz vaxtlarda, ulu öndərimizin səhhətində problemlər yaşandığı zamanlarda Artur müəllim Azərbaycan dövlətinə öz xidmətlərini göstərdi. O, ambisiyasız adamdır. Görmüş olduğu işləri heç vaxt təqdim etməyə icazə vermir. Dünyanın müxtəlif dövlətlərinin rəhbərliyində təmsil olunan şəxslərin onunla görüşləri keçirilir, amma o, heç vaxt bu görüşlərin televiziyalarda işıqlandırılmasına razı olmur. Bu insan çox təvazökardır. Dövlət qarşısında xidmət göstərməyi özünə şərəf bilir. Bütün məmurlarımız dövlətə xidməti şərəfləri bilsəydilər, heç bir problem olmazdı. Bir neçə müddət bundan əvvəl MTN naziri xoşagəlməz durum yaratdı. Ondan qabaq ayrı-ayrı nazirlərin ambisiyaları problemlər yaratdı. Bu məmurlar silahlı toqquşmaya belə hazır şəxslər idi. Bunlarla müqayisədə Artur müəllim özünə hörmət edən nəcib bir insandır. Unutmaq olmaz ki, o, hər birimizin şlyapamızı çıxarıb, ruhu qarşısında baş əyəcəyimiz Hüseyn Cavidin qardaşı oğludur”.

❑ Cavanşir ABBASLI



# Jurnalistin prezidentə "təşəkkür"ü

Xalid KAZIMLI

**Türkiyədə yenicə həbsdən buraxılmış jurnalist Can Dündarın prezident Ərdoğana ünvanladığı "təşəkkür məktubu" gerçəkdən də sənət əsəridir. Vaxt gələcək, bu yazı dərsliklərə salınacaq, universitetlərin jurnalistika fakültəsində tədris ediləcək.**

Can Dündarın hər sətri mənalı olan yazısında belə cümlələr var: "Artıq dinləməkdə olduğunuz bir telefonum olmamasının rahatlığıyla neçə vaxtdır oxuya bilmədiyim kitabları oxudum; heç yaza bilmədiyim qədər çox yazı yazdım (hətta artıq sizin tərəfinizdən tutuqlanma riski qalmadığından daha rahat yazdım)".

Əlbəttə, bu, bildiyimiz "təşəkkür məktubu" deyil, bu, sarkazm dolu qeydlərdir. Bir prezidentə ünvanlayaraq, "artıq sizin tərəfinizdən tutuqlanma riski qalmadığından daha rahat yazdım" yazmaq həmin prezidentin nə dərəcədə demokrat və ya avtoritar olmasına açıq işarədir.

Can Dündar birbaşa, açıq mətnlə özünün və həmkarının Ərdoğanın sifarişi ilə həbs edildiyini yazır. Bu, demokratik quruluşlu ölkələrdə yolverilməz, qəbuledilməz durumdur. İnsanların günah dərəcələrinə görə həbsdə olub-olmamasını qanunlar, məhkəmələr müəyyən etməlidir. Nə yazıq ki, son yeddi-səkkiz ildə qardaş Türkiyədə bu işi məhkəmələrlə paralel digər strukturlar da görür - həm də saraydan gələn sifarişlər əsasında.

İndi bəziləri deyir, Ərdoğanı necə diktator adlandırmaq olar ki, onun tutdurduğu iki jurnalist azadlığa buraxıldı.

Bəli, iki jurnalist prezidentin iradəsinin əleyhinə olaraq, konstitusiya məhkəməsinin qərarı ilə azadlığa buraxılıb. Ancaq prezidentin də reaksiyası ortadadır: "Məhkəmənin qərarına hörmət etmirəm".

Bir ölkədə konstitusiya məhkəməsinin qərarına prezident tərəfindən hörmət edilmirsə, o ölkədə demokratiyadan, qanunun aliliyindən söhbət gedə bilməz.

Sadəcə, hələ prezident Ərdoğan bütün hakimiyyət qollarının səlahiyyətlərini tək əldə, öz əlində cəmləşdirmək niyyətini həyata keçirib qurtara bilməyib. Zatən, onun israrla ölkəsində prezidentlik institutunun bərqərar edilməsinə çalışmasının başlıca qayəsi budur. O da olandan sonra nəinki Can Dündarı, hətta Uğur Dündarı, Emin Çölaşanı, Yılmaz Özdili də məhbəsə salacaqlar.

Can Dündarın şəxsiyyəti və vətənpərvərliyi bir qırağa dursun, bu, mübahisəli məsələdir. Erməni jurnalist Qrant Dink öldürülən zaman o, antimilli mövqe tutmuşdu.

Ancaq adamın yazarlıq, jurnalistlik istedadına söz yoxdur. Ziyalıdır, tolerantdır, demokratdır. Ona görə də onun bəzən hansısa prinsipləri, dəyərləri müdafiə edərkən ifrata varmasına səbirlə yanaşmaq, özünün öz səhvini anlayacağı günü gözləmək lazımdır.

Dündarın sırf prezident Ərdoğanı tənqid etdiyi üçün həbs edilməsi açıq bir şəkildə ortadaydı və bu, Türkiyənin adına utanc gətirən hadisəydi. Bu ölkənin konstitusiya məhkəməsi bu yanlışı ona görə düzəltdi ki, Türkiyənin adı beynəlxalq hesabatlarda hallanırdı. Yoxsa bu, Can Dündarın şəxsiyyətinə hörmətdən, Ərdoğanın personasına antipatiyadan irəli gəlmirdi.

Demokratik dövlətlərdə bu kimi instansiyalar var və onlar lazım gələndə prezidentin, baş nazirin, digər yüksək mənsəbli məmurların yanlış, qərəzli qərarlarına düzəliş edə bilir, ədaləti qoruyurlar.

Bəzi ölkələrdə isə belə institutlar, instansiyalar ya yoxdur, əvvəlcədən bərqərar edilməyib, ya da olub, sonradan məhv edilib.

Bizdə belə instansiyalar əvvəlcədən olmayıb. Yalnız 1992-93-cü illərdə Ali Məhkəmə öz üzərinə belə bir funksiya götürərək, icra hakimiyyəti strukturlarının yanlış saydığı qərarlarını düzəltmək cəhdi göstərirdi, onda da ifrata vararaq, düzgün qərarları yanlış çıxarırdı. Nəticədə Elçibəy hakimiyyəti laxladı, öz iradəsini həyata keçirərkən maneələrlə üzləşdi.

Həbsdən buraxılmış jurnalistin prezidentə bu sayaq "təşəkkür" məktubu yazmasına gəlincə, bizim ölkədə analoji hadisə heç vaxt olmayıb. Bizdə həbsdən azad olunanlar ya susurlar, ya da qeyri-səmimi, eyni zamanda "sınmış" halda təşəkkür bəyanatı verirlər.

Bu da ona görədir ki, bizdə prezidentin qərarlarını dəyişdirə biləcək, onlara hər hansı bir düzəliş edəcək heç bir instansiya yoxdur. Həbsdən buraxılanlar da yaxşı bilirlər ki, bu, kimin iradəsi ilə baş tutub.





# Sərdar Həmidov işğaldan qoruduğu Tərtərdə torpağa tapşırıldı

**Fevralın 28-də gecə saatlarında Tərtər Özünümüdafiə Batalyonunun sabiq komandanı, Tərtər rayonunun icra başçısı olmuş Sərdar Həmidov dünyasını dəyişib. Sərdar Həmidov fevralın 29-da işğaldan qoruduğu Tərtər rayonunda dəfn edilib. Onun üç mərasimi də Tərtərdə ata yurdunda keçiriləcək.**

Etatist.com xəbər verir ki, onun dəfn mərasimində qardaşı, sabiq daxili işlər naziri İsgəndər Həmidov, Qarabağ müharibəsi iştirakçıları - döyüşçülər, yaxınları iştirak edib.

Öncə qeyd edək ki, 1992-1994-cü illərdə Tərtər rayonunun icra başçısı olmuş Sərdar Həmidovun xidmətləri nəticəsində rayonun ərazisi düşməndən tam şəkildə müdafiə oluna bilib. 1992-ci ilin 4 iyulunda Ağdərə rayonunun düşməndən azad edilməsi prosesində, hərbi əməliyyatların aparılmasındakı xidmətlərinə görə Sərdar Həmidova Azərbaycanın o zamankı prezidenti Əbülfəz Elçibəy tərəfindən Fəxri Fərman verilmişdi.

AXC hakimiyyəti dövründə icra başçısı işləmiş S.Həmidov daha sonra 8 ilə yaxın həbsxana həyatı yaşayıb. 2004-cü ildə isə o, Azərbaycan prezidentinin əfv fərmanı ilə azadlığa çıxmışdı. S. Həmidov keçmiş daxili işlər naziri İsgəndər Həmidovun qardaşıdır.

Onu da qeyd edək ki, S.Həmidov birinci Qarabağ savaşında bir neçə güllə yarası alıb, ağciyərinin bir payını itirmişdi. Uzun illərdir yuxarı tənəffüs yolları xəstəliyindən, hipertoniyadan, diabetdən əziyyət çəkirdi...

28 fevralda səhər saatlarında vəziyyəti qəfildən pisləşdiyi üçün onu 1 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdiriblər. S.Həmidov gecə elə orada dünyasını dəyişib.

S. Həmidovun vəfatından təsirlənən tanınmış ictimai şəxslər onun haqqında fikirlərini paylaşıblar.

**Müsavat Partiyasının keçmiş başqanı İsa Qəmbər S. Həmidovu şəhid adlandırıb. Bu barədə facebook səhifəsində yazan İ. Qəmbər qeyd edib ki, Sərdar Həmidovun 1992-1993-cü illərdə Tərtərin qorunmasında həlledici xidmətləri olub:** "Şəhid belə olur! Övladlarına, İsgəndər bəyə, yaxınlarına, bütün Tərtər camaatına başsağlığı verirəm. Tanrı ruhunu şad etsin".





**İsa Qəmbər:** ""Şəhid belə olur!"
**Mehdi Mehdiyev:** "Sərdar bəy gözəl sərkərdə olmaqla yanaşı, həm də müdrik şəxsiyyət, böyük ağsaqqal idi"
**İlham İsmayıl:** "O, mübarizliyini son anına qədər qorudu"



**Sərdar Həmidovu yaxından tanıyan sabiq MTN zabiti İlham İsmayıl da "Yeni Müsavat"a onunla bağlı xatirələrini danışdı. O söylədi ki, Sərdar Həmidov peşəkar hərbçi deyildi:** "O, vətənpərvər, el dərdi çəkən idi. Bu xüsusiyyətlər onu anadangəlmə hərbiçi, sərkərdə etmişdi. Biz bu gün (dünən-red.) onun dəfn mərasimində iştirak etdik. Ora gələn insanlar da bildirdilər ki, Sərdar Həmidovun şücaətinə görə hazırda Tərtər camaatı öz torpağındadır, ata-babalarının məzarlarını rahat şəkildə ziyarət edirlər. Tərtər təkcə müdafiə mövqeyində deyil, həm də hücumda olub. Dağlıq Qarabağın ətrafında Tərtər yeganə rayondur ki, bir qarış torpağı da işğal altında deyil. Əksinə, Tərtər istiqamətində Dağlıq Qarabağda 8 kənd Azərbaycanın nəzarətindədir. Bu kəndlərin də qorunmasında, alınmasında Sərdar Həmidovun böyük rolu olub. Yeri gələndə onun qışqırmağı, sillə vurmağı olmasaydı, digər işğal altında olan rayonlarımız kimi Tərtəri də itirmişdik".

**İ. İsmayıl onun ömrünün son anlarını aşağıdakı kimi təsvir etdi:**

"Ömrünün son anlarında mən də onun yanında idim. Mən xəstəxanaya çatdığım zaman gördüm ki, o, yerində oturub, uzanmır. Həkimlər iynə vurmaq istəyirdi, lakin o söyləyirdi ki, mənə heç nə olmayıb. Elə bil istəmirdi ki, kimsə onu yazıq vəziyyətində görsün. Ona görə də uzanmaqdan çox, ayaqüstündə dururdu. Üç nəfər zorla onu saxladıq ki, həkimlər sakitləşdirici iynə vursunlar. Yəni o, mübarizliyini son anına qədər də qorudu. Allah rəhmət eləsin".

**Onu yaxından tanıyan daha bir nəfər - döyüşçü Mehdi Mehdiyev də Sərdar Həmidov haqqında fikirlərini bölüşdü:** "Camaatımız bildirir ki, Sərdar bəy Tərtərdə hər bir sakinə ev qoyub getdi. Sərdar bəy bu gün özünün qanı, canı bahasına qoruduğu torpaqda da dəfn olundu. Onun ölümü həm Azərbaycan, həm də yaxınları üçün çox böyük itki oldu. Sərdar bəy gözəl sərkərdə olmaqla yanaşı, həm də müdrik şəxsiyyət, böyük ağsaqqal idi. İnsan kimi çox güclü xarakterə malik, mərd adam idi. Allah rəhmət eləsin. Bu gün hər birimiz onu itirdiyimiz üçün çox üzgünük".

**Əməkdaşımız Kənan Rövşənoğlu isə modern.az saytına mərhum Sərdar Həmidovla bağlı xatirələrini bölüşərkən aşağıdakıları bildirib:**

"Sərdar Həmidovu Tərtərdə uşaqdan böyüyə hamı tanıyır. Hər kəs üçün Tərtəri işğaldan qoruyan komandir və icra başçısıdır. Savaş bizim yeniyetməlik dövrümüzə düşdü, amma olanları izləyirdik. O zaman 90-cı illərin əvvəllərində Tərtərdə ermənilərə qarşı rayonun fəal insanları hərəkətə keçirdilər. AXC hakimiyyətə gəlməzdən əvvəl Tərtərdə silahlı birliklər qurulmuşdu, ermənilərə qarşı vuruşurdular. O zaman Sərdar Həmidov silahlı dəstə yaratmışdı. Sonra AXC hakimiyyəti zamanı icra başçısı təyin olundu və sorağı Ağdərədən gəlməyə başladı.

Uğurlu Ağdərə əməliyyatında onun adı əsas komandirlərdən idi. Eyni zamanda onun savaş vaxtı əlinə silah götürüb əsgərlərin qabağında getməsi, döyüşçülərə can yandırması, şəhid ailələrinə özəl münasibəti vardı. Amma yalnız komandir kimi deyil, həm də icra başçısı kimi də müsbət insan olaraq yadda qaldı. Gənc adamları irəli çəkdi.

Bütün keçmiş döyüş adamları kimi də onda bir ideya var idi: "Torpaqlar azad edilsin". Sərdar bəy vətənə, torpağa xidmət etdi, onun qorunması üçün əsl mübarizə apardı. Bu səbəbdən də o, Qarabağ şəhididir. Allah rəhmət eləsin".

❑ Əli RAİS

**Amerika Azərbaycan iqtisadiyyatına dəstək verəcək. Bu sözləri ABŞ səfiri Robert Sekuta iqtisadiyyat naziri Şahin Mustafayevlə görüşündə bildirib. Qeyd edək ki, görüşdə Azərbaycan və ABŞ arasındakı mövcud iqtisadi əlaqələrə və bu əməkdaşlığın genişləndirilməsi perspektivlərinə, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.**

# ABŞ-dan Azərbaycana dəstək; yeni iqtisadi model müzakirə olunur

## Vüqar Bayramov: "Postneft dövrü bunu tələb edirdi"

Şahin Mustafayev Azərbaycanda aparılan iqtisadi islahatlar, qeyri-neft sektorunun inkişafı, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, sahibkarlara dəstək tədbirləri barədə məlumat verib. Həmçinin iqtisadiyyatın bir çox sahələrində, xüsusilə investisiyaların cəlb edilməsi, dərman vasitələrinin, suvarma avadanlıqlarının istehsalı, neft maşınqayırması, neft-kimya, yüksək texnologiyalar və sair sahələrdə ABŞ-la əməkdaşlıq üçün geniş imkanların olduğunu vurğulayıb.

ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta da ABŞ-Azərbaycan iqtisadi əlaqələrinin genişləndirilməsi üçün böyük potensialın olduğunu, ölkəsinin Cənub Qaz Dəhlizi layihəsini dəstəklədiyini bildirib. Robert Sekuta Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılmasının əhəmiyyətini qeyd edərək, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) vasitəsilə şuranın fəaliyyətinin dəstəklənəcəyini qeyd edib.



**"Amerika ilə bu cür müzakirələrin son dövrlərdə daha da intensivləşməsi müsbət haldır"**

Səfir Sekuta Azərbaycanda həyata keçirilən islahatları izlədiyini, ölkəsinin Azərbaycanda aparılan iqtisadi islahatlara dəstək göstərməyə hazır olduğunu vurğulayıb.

ABŞ səfirinin nazirlə görüşdə ABŞ-ın Azərbaycana dəstəyini vəd etməsi iqtisadçılar tərəfindən müsbət qarşılanıb. Azərbaycan iqtisadiyyatını idarə edən birinci şəxsin ABŞ səfiri ilə ölkə iqtisadiyyatını müzakirə etməsi maraqlı məqamlardan xəbər verir.

Bəs ABŞ-ın Azərbaycan iqtisadiyyatına, aparılan islahatlara dəstəyi nə ola bilər? Burada maddi dəstək də müzakirə mövzusu ola bilərmi? Amerika Azərbaycana yeni iqtisadi modelmi gətirəcək?

**İqtisadçı ekspert Vüqar Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Amerika Azərbaycan üçün iqtisadi və strateji baxımdan ən önəmli ölkələrdən biridir:** "ABŞ dünya iqtisadiyyatında pay baxımından ən güclü ölkələrdən biridir. Eləcə də ABŞ-ın qlobal iqtisadi qərarlara təsir gücü olduqca böyükdür. Birləşmiş Ştatların da inkişaf etmiş ölkələr kimi tərəfdaşlarının olduğunu nəzərə alsaq, bu, ondan xəbər verir ki, ABŞ praktik olaraq bu gün dünyada iqtisadi gücdür və dünyada ümumdaxili məhsulun 2 faizi ABŞ-ın payına düşür. Dünyada hər yaradılan 5 dollardan ən azı biri ABŞ-ın payına düşür. Bu baxımdan ABŞ-la strateji müttəfiqlik və əməkdaşlıq olduqca vacibdir. Bu həm də ölkəyə maliyyə resurslarının cəlb edilməsi baxımından vacibdir. Bu Azərbaycana imkan verəcək, həm Amerikanın, o cümlədən bu ölkənin təsirində olan beynəlxalq maliyyə qurumlarından daha çox maliyyə resursları cəlb edə bilsin. Hazırkı məqamda Azərbaycanın bu maliyyəyə ehtiyacı var. Eyni zamanda bu, Azərbaycan üçün yeni bir iqtisadi modelin tətbiq edilməsi baxımından vacibdir. ABŞ Azərbaycanda yeni iqtisadi modelin hazırlanmasında maraqlıdır və bu istiqamətdə yardım göstərmək imkanına malikdir. Nəzərə alsaq ki, Azərbaycan hökuməti Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, hətta Asiya İnkişaf Bankını yeni əməkdaşlıq imkanlarının müzakirəsi üçün Azərbaycana dəvət etmişdi. Amerikanın da bu maliyyə qurumlarına təsiri olduqca böyükdür".

**Ekspertin sözlərinə görə, burada ikinci ən önəmli məsələ odur ki, Azərbaycan üçün yeni iqtisadi modelin hazırlanmasına ehtiyac var və ABŞ bu yeni modeli Azərbaycana gətirmək imkanına malikdir:** "Postneft dövrü artıq yeni bir iqtisadi modelin hazırlanmasını tələb edir. Bu dövr eyni zamanda tələb edir ki, Azərbaycanda iqtisadi situasiyaya xidmət edən bir model hazırlansın. Ona görə də ABŞ-la bu istiqamətdə müzakirələrin davam etməsi və son dövrlərdə daha da intensivləşməsi müsbət haldır. Bu, Azərbaycan iqtisadiyyatına maliyyə yardımı, yeni modelin hazırlanması və tətbiqi deməkdir. Hansı modellərin təklif olunması ilə bağlı yaqin ki, yaxın vaxtlarda məlumat veriləcək. Bütün hallarda belə görüşlərin keçirilməsi və müzakirələrin aparılması pozitiv qiymətləndirilməlidir".

Sekutanın ölkəsinin Cənub Qaz Dəhlizi layihəsinə dəstək verməsi ilə bağlı açıqlamasına toxunan iqtisadçı ekspert bildirdi ki, Cənub Qaz Dəhlizi layihəsi ilə bağlı son dövrlər müəyyən narazılıq var idi və ABŞ-ın dəstəyi bu məsələdə yeni münasibət formalaşdıra bilər: "Qərbdə Cənub Qaz Dəhlizi layihəsinin dəstəklənməməsi ilə bağlı müzakirələr gedirdi və müəyyən fikirlər formalaşmışdı. Bunun da əsas səbəbi Cənub Qaz Dəhlizinin fərqli olması və İranın bazara çıxış imkanlarını genişləndirməsi ilə bağlı idi. Bu baxımdan Amerikanın Cənub Qaz Dəhlizi layihəsini dəstəkləməsi olduqca vacibdir. Xüsusən maliyyə resursları baxımından önəmlidir. Cənub Qaz Dəhlizi layihəsinin platforma da daxil olmaqla, dəyəri 45 milyard dollardır və dünyada ən çox xərc tələb edən investisiya layihəsidir. Ona görə də bazarda rəqabətin gücləndiyini və layihənin külli miqdarda xərc tələb etdiyini nəzərə alsaq, Amerikanın bu layihəyə dəstək olması çox önəmlidir. Bu, həm də investorların Cənub Qaz Dəhlizi layihəsinə marağını formalaşdıracaq. Ona görə də Azərbaycan ABŞ-la iqtisadi və siyasi əməkdaşlığı gücləndirməlidir. Çünki ABŞ dünyada qlobal proseslərə ən çox təsir edən ölkədir. Azərbaycan da ABŞ-la strateji müttəfiqliyi yenidən formalaşdırmalıdır ki, bu ölkənin dəstəyi ilə regional layihələri reallaşdıra bilsin.

❑ **Nərgiz LİFTİYEVA**

---

# Siyasi məhbuslarla bağlı say müəmması

## SMMM 107 nəfərlik siyahı təqdim edib; mərkəzin siyahısı birmənalı qarşılanmayıb; Əfv Komissiyası isə ilk iclasda yeni siyahı hazırlayacaq

**Siyasi Məhbusların Monitorinq Mərkəzi Əfv Komissiyasına siyasi məhbuslarla bağlı yeni siyahı təqdim edib. Əvvəlkilərə nisbətən siyahıya əlavələr edilib. Mərkəz Azərbaycanda 107 nəfər siyasi məhbusun olduğunu açıqlayıb.**

Qurumun rəhbəri Elşən Həsənov bildirib ki, 2015-ci ilin sonlarında vətəndaş cəmiyyəti fəallarının tərtib etdiyi vahid siyahıdakı 93 nəfərdən başqa siyahıya bir neçə nəfər də əlavə olunub.

Siyahıda diqqətçəkən məqamlardan biri də Nardaran hadisələrinə görə həbs edilən "Müsəlman Birliyi" Hərəkatının rəhbəri Tale Bağırzadə başda olmaqla, 9 nəfərin adının da siyahıya əlavə edilməsidir. Bu isə mərkəzin siyahısı ilə bağlı fikir ayrılığı yaradıb. Çünki Nardaran hadisələrində həbs edilənlərin siyasi olub-olmamaları ilə bağlı cəmiyyət arasında ikitirəlik yaranıb.

Qeyd edək ki, indiyə qədər siyasi məhbusların siyahıları ilə bağlı daim fikir ayrılığı yaranıb. Hüquq müdafiə təşkilatlarının siyahıları say baxımından bir-birindən ciddi şəkildə fərqlənib. İndiki kimi...

**Hüquq müdafiəçisi Arzu Abdullayeva siyasi məhbusların iki kateqoriyaya bölündüyünü söylədi:** "Biri var siyasi məhbus, biri də var ki, ehtimal olunan siyasi məhbus. Siyasi məhbusların siyahısından o fikir ortaya çıxmır ki, onların hamısı dərhal azad olunsun. Sadəcə, onlar barəsində geniş bilgi əldə olunur, istintaq və məhkəmə prosesləri analiz edilir. Hazırda siyasilərlə bağlı 2-3 siyahı mövcuddur. İslamçılar ayrı siyahıdadırlar. Siyasi motivlərlə həbs edilənlər artıq siyasi məhbus kimi tanınıblar. Nardaran hadisələri ilə bağlı həbs edilənlərin qəti şəkildə siyasi məhbus olmadığını demək çətindir. Çünki istintaq hərəkətlərindən xəbərsizik. Tələbimiz odur ki, istintaq və məhkəmə prosesi ədalətli aparılsın. İslamçıların istintaq hərəkətlərində ciddi qanun pozuntuları olub. Səid Dadaşzadənin işində 300-ə qədər anlaşılmazlıq var. Fikrimcə, Tale Bağırzadə siyasi məhbusdur. Bu şəxsə işgəncələr verilibsə, cinayəti olsa belə, düzgün hərəkət deyil. Ona işgəncə verənlər niyə həbs olunmurlar? Çünki onlar da cinayət törədirlər. Onların cinayəti ehtimal olunandan qat-qat ağırdır. Nardaran əhalisinə qarşı ədalətsizlik edildi. Qayda-qanunu belə formada yaratmaq olmaz. Hər kəs bilir ki, radikal islam şiə islamı deyil. Şiəlikdən ölkəmizə təhlükə yoxdur. Maraqlı qüvvələr var ki, bu işi törətdilər. Onlar ölkəmiz üçün işləmirlər".



Mirvari Qəhrəmanlı



Arzu Abdullayeva

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı 107 nəfər siyasi məhbusun mövcudluğundan xəbərsiz olduğunu qeyd etdi:** "Bu qədər siyasi məhbusun olduğunu müzakirə etməmişik. Əvvəlcə 98 nəfərin adı siyahıya salınırdı. Sonradan onların arasından azadlığa çıxanlar oldu. İndiki siyahıya Nardaran hadisələri ilə bağlı həbs edilənlərdən 9 nəfərin adının salınması müəmmalıdır. Çünki heç bir hüquq müdafiəçisi hadisələr baş verərkən Nardaranda ola bilmədi. Hər kəs mətbuatdakı yazılar əsasında rəy bildirdi. Yanaşma tərzləri müxtəlif oldu. Tale Bağırzadə barəsində qəti fikir bildirmək qeyri-mümkündür. Hazırda istintaq hərəkətləri gedir. O, yalnız vəkili ilə görüşə bilir. Onun adının Əfv Komissiyasına təqdim olunmasına müsbət yanaşıram. Siyasi Məhbusların Monitorinq Mərkəzi hesab edirsə ki, Nardaranla bağlı həbs edilənlər siyasi məhbusdur, deməli, əsasları da var. Siyahı tərtib etmək əsas deyil. Əsas odur ki, faktlarla ictimaiyyətə informasiya vermək üçün sübutlar ortada olsun. Əgər siyasi məhbusun kateqoriyaları Tale Bağırzadədə varsa, mərkəz bunu sübut edəcəksə, deməli, o, siyasi məhbusdur".

**"Əfv Komissiyası yeni tərkibdə hələ ki toplanmayıb. İlk iclasın vaxtı da bəlli deyil. Ancaq yaxın zamanlarda komissiya ilk iclasını keçirəcək. Bir neçə günə iclasın tam dəqiq vaxtı məlum olacaq".**

**Bunu isə cebhe.info-ya açıqlamasında Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri, Əfv Komissiyasının üzvü Mehti Mehtiyev deyib.**

**M.Mehtiyev qeyd edib ki, növbəti əfv siyahısında kimlərin adları olacağına ilk iclasda aydınlıq gətiriləcək: "Qarşıdan Novruz bayramı gəlir, çox güman ki, bayram ərəfəsində bu məsələlərə baxılacaq".**

❑ **Cavanşir ABBASLI**

**Ümid Partiyasına yeni sədr müavini təyin olunmuş Tamilla Qulami Kanal13 internet televiziyasına videomüsahibə verib. Ümid Partiyasının mətbuat xidməti həmin videomüsahibənin yazı variantını oxuculara təqdim edir:**

# "Nə qədər bu hakimiyyət qalıbsa, problemlər dəyişməyəcək"

## Tamilla Qulami: "Yeni dövrün tələblərinə uyğun olaraq, təbliğat işi qurulmalıdır"



***- Partiyanın təbliğat işində nə kimi yeniliklər olacaq?***

- Əslində yeni dövrün tələblərinə uyğun olaraq, təbliğat işi qurulmalıdır. Bir az bu işdə axsamalarımız var. Üzvlərimiz, tərəfdarlarımız, bizə dəstək verənlərin çox olmasına baxmayaraq, sistemli şəkildə istər sosial şəbəkələrdə, istərsə də mətbuatda hələ yetərincə işıqlandıra bilməmişik. Baxmayaraq ki, kifayət qədər işimiz var, kifayət qədər rayon strukturlarımız və təşkilatlarımız var. O cümlədən kadr potensialımız da yüksəkdir. Əslində mərkəzi aparatda yeni nəsildir, yeni düşüncə, yeni təfəkkür, yeni yanaşmadır. Onların mətbuata, ictimaiyyətə təqdim olunması qarşımızda dayanan ən önəmli məsələlərdən biridir. Saytımız üzərində də kifayət qədər ciddi işləyirik. Çox yaxın zamanda ictimaiyyətə təqdim edəcəyik.

Tarixin bütün dönəmlərində, siyasətlə məşğul olduğumuz müddətdə Ümid Partiyası adına verdiyimiz bütün mesajlar zaman-zaman özünü doğrultmuş mesajlardır. Bu mesajlar üzərində yenidən işləyirik ki, bu mesajlar daha geniş kütləni əhatə etsin, daha geniş kütlə bütün proseslərdə bizim mesajlarımızı almış olsun, bizim istədiyimiz şəkildə reaksiya versin , o cümlədən hakimiyyətin dəyişdirilməsi istiqamətində cavabları sərgiləmiş olsun, xüsusən də seçki dönəmində biz istədiyimiz cavabları ala bilək. Düşünürük ki, təbliğat və təşviqat işi elə yüksək səviyyədə həyata keçirilməlidir ki, bizi hakimiyyətə daşıya biləcək komanda, Azərbaycanın bütün kəndlərində öz təbliğatını apara bilsin, hər bir bölgədə, hər bir evdə bizim səsimiz eşidilə bilsin, bizim kimliyimizi tanıya bilsinlər. Siyasi partiya üzvləri ilə hakimiyyətə gəlmək olmur, siyasi partiya üzvləri ilə yalnız təbliğat və təşviqat işi qurmaq mümkündür. Əgər bir partiya qalxıb da desə ki, mən siyasi partiya üzvlərinin sayıyla hakimiyyətə gələcəm, bu məntiqdən bir az uzaq olar. Ən azı onda gərək 2.5 milyon üzvü ola. Hətta inzibati resursların hamısını cəlb etsən belə, bir partiyanın sayını 2,5 milyona çatdırmaq mümkün deyil. Amma yaxşı 1000 təbliğatçı ilə cəmiyyətə o mesajlara ciddi cavablar almaq olar. Strategiyamızı, təbliğat-təşviqat istiqamətlərimizi müasir dövrün tələblərinə və dediyimiz istiqamətlərdə qurmağı düşünürük.

***- Siz ixtisasca kulturoloqsunuz. Bir müddət telejurnalist kimi də fəaliyyət göstərmisiniz. Özünüzü siyasi meydanda necə görürsünüz?***

- Kulturologiya, mədəniyyət və ümumiyyətlə, folklor, ağız ədəbiyyatı bir millətin mental dəyərlərini formalaşdıran və milləti onun üzərində saxlayan əsas faktorlardan biridir. Bəlkə siyasətlə folklorun bağlılığını, bəlkə siyasətlə kulturologiyanın, mədəniyyətin, bəlkə ağız ədəbiyyatının bağlılığını çox az adam görür. Amma biz beşikdən qəbir evinə qədər bizi müşayiət edən mədəniyyətlə, sosial mədəniyyətlə, adət-ənənə mədəniyyəti, tarixi mədəniyyət və gələcəkdə formalaşacaq mədəniyyətin içərisində insanlarımızı yetişdiririk. Ona görə hesab edirəm ki, burda təəccüblü nəsə yoxdur, əksinə, elə bura həm də geniş mənada Azərbaycana xeyir verə biləcək və mədəniyyətimizin gələcəyi ilə onun keçmişini birləşdirə biləcək. Bir müddət telejurnalist işləməyim, media ilə əlaqələrim təbliğat-təşviqat işlərinin daha rahat həyata keçirilməsi üçün böyük təcrübədir. Bildiyiniz kimi mətbu orqanlarında kifayət qədər ictimai-siyasi yazılarım dərc olunub. Belə ki, bu fəaliyyətlərim hər iki halda bu sahələrin vəhdətini təşkil edə biləcək bir sahədir və bu istiqamətdə də çalışıram.

***- İki ilə yaxın bir müddətdə mənsub olduğunuz partiyada sürətlə irəliləmisiniz. Şöbə müdirindən sədr müavinliyinədək. Sizcə, bu etimaddır, ya sizin bacarığınız?***

- Hər halda, etimad məsələsi bacarığa söykənir. Partiya rəhbərliyi o qədər də prosesləri və şəxsiyyətləri qiymətləndirmə imkanından məhrum deyil ki, mənim bacarığım olmaya-olmaya bizi bir yerlərə çatdıra. Bu mənim bacarığım və partiya rəhbərliyinin etimadıdır. Hər ikisinin səyi nəticəsində mən partiya strukturlarında bu gün aktiv yer alıram və mənə bu cür yüksək görəv verilib. Bunun üçün də partiya sədrimə, rəhbərliyə xüsusi təşəkkürümü bildirirəm.

***- Yenə təbliğat və təşviqat işlərinə qayıdaq. İşinizi necə quracaqsınız? Bir siyasi partiya olaraq seçicilərinizə nə kimi mesajlarınız var?***

- Mesajlarımız barədə deyə bilmərik. Ənənəvi mesajlarımızın heç biri köhnəlməyib. İndiyədək verdiyimiz mesajların heç biri dəyişməyib, biz mesajlarımızı necə çatdırmağın sadəcə yeni yollarını arayacağıq. Amma bu o demək deyil ki, köhnə mesajlarımızdan imtina etməli olacağıq. İstər 2008-2013-cü il prezident seçkilərində, istərsə də keçirilən 3 parlament seçkilərində Ümid Partiyasının mesajları cəmiyyət üçün kifayət qədər açıq və səmimi olub. Biz bu hakimiyyətin problemləri həll etməyəcəyi qənaətindəyik və mesajlarımız da bu idi ki, nə qədər bu hakimiyyət qalıbsa, problemlər dəyişməyəcək. Aşağı-yuxarı kosmetik nələrsə, dəyişə bilər amma geniş mənada problemlər daha da dərinləşəcək. Yadınıza gəlirsə, 2008-ci ilin prezident seçkilərində prezidentliyə namizədimizin ilk çıxışı bu idi: "İndi qarşınızdayam, 5 il bundan sonra da bu hakimiyyəti dəyişməsəniz, qarşınıza çıxıb eyni problemləri sizinçün sadalayacağam və yenə də deyəcəm ki, hakimiyyət dəyişməsə, bu problemləriniz həll olunmayacaq." 2013-cü ilin prezident seçkilərində yenə də ənənəvi qaydada televiziya debatlarında da partiya sədrimiz, sabiq millət vəkili İqbal Ağazadənin ilk çıxışı belə oldu: "Xatirinizdədirsə, 5 il öncə də çıxış edib demişdim ki, bu hakimiyyəti dəyişməsəniz problemləriniz köhnə problem olaraq qalacaq"

Bu gün də problemlər köhnədir, problemlər köhnədirsə, hakimiyyətin dəyişməsi və bizim böyük şüarımız olan "Dəyişmək" bu gün də aktualdır. Bunu, sadəcə, təkmilləşdirmək və daha geniş kütləyə necə çatdırılması istiqamətində, onun mahiyyət və fəlsəfəsini, insanları qorxudan tərəflərinin aradan qaldırılmasını, Yaxın Şərqdə, postsovet ölkələrində baş verən hadisələr fonunda dəyişməyin zərərli tendensiya olduğunu daim vurğulayan hakimiyyət nümayəndələrinə qarşı əks təbliğatın və əks arqumentlərin necə qoyulması üzərində ciddi şəkildə işləyirik və gerçəkdən də biz özümüz dəyişilməyən cəmiyyətlərin hansı faciələrlə üzləşdiyini görmüşük və Azərbaycan cəmiyyətinin də dəyişməkdən qorxmamağa səsləyən bir siyasət sərgiləyəcəyik. Ona görə də şüarlarımız, mesajlarımız köhnədir, sadəcə yanaşma üsullarımız müasir dövrün tələblərinə, texnologiyanın imkanlarına, o cümlədən də yeni insanlara və daha inandırıcı şəkildə onları çatdırmaqla bağlıdır.

# "Facebook statusunda 200-300 bəyənməsi olan fəalları nəzarətə alırlar"

## Qədir Aslanov: ""Layk"ların sərbəst toplaşma hüququ olmayan bir ölkədə insanların sərbəst toplaşma hüququndan söhbət gedə bilməz"



**Bu yaxınlarda Ümid Partiyasında yeni müavinlik yaradıldı. Qədir Xıdır oğlu Aslanov Ümid Partiyası sədrinin İnsan hüquqları və əsas azadlıqların qorunması üzrə sədr müavini təyin edildi. Qədir Aslanov mətbuat xidmətinin suallarını cavablandırıb. Müsahibəni oxuculara təqdim edirik.**

***- Qədir bəy, sizə uğurlar diləyirik. Bu sahə üzrə strategiyanız varmı? Niyə məhz siz bu sahəyə seçildiniz?***

- Öncə təbriklərə görə sizə təşəkkür edirəm. Öz adıma məmnun olduğumu bildirmək istəyirəm. Həmçinin məndən başqa bir neçə gənc də yeni təyinat alıblar, onları da təbrik edir, hər birinə ayrılıqda uğurlar diləyirəm. Bu vəzifəyə təyin olunmağımda partiya sədrinin mövqeyi çox önəmlidir. Görünən odur ki, partiya daxilində fəaliyyətim olub və İqbal bəy də bunu dəyərləndirib. Gənclərə önəm verdiyinə, etimad göstərdiyinə görə xüsusi olaraq Partiya sədrimizə minnətdarlığımı bildirirəm.

Qeyd edim ki, insan hüquqları üzrə Azərbaycanda bir sıra təşkilatlar var. Və bu istiqamətdə fəaliyyət göstərirlər. Beynəlxalq insan haqları təşkilatları var, onların da Azərbaycanda müəyyən qədər fəaliyyəti var. Azərbaycanın beynəlxalq insan haqları təşkilatları qarşısında öhdəlikləri var. Dünya təcrübəsi var və bu səbəbdən strategiyamızı yaratmaq çətin olmadı. Lakin strategiyanın yaranması işin çox az bir qismidir. Müəyyən təcrübələrdən yararlanaraq bunu etmək olur. Lakin bunun tətbiqinə gəlincə bir sıra addımlar nəzərdə tutmuşuq, fəaliyyət proqramı var. Yaxın vaxtlarda fəaliyyətimizlə bağlı ictimaiyyətə açıqlamalarımız olacaq.

***- Ölkədə insan azadlıqları ilə bağlı durumu necə qiymətləndirirsiniz?***

- Hazırda Azərbaycanda bütün sahələrdə böhran mövcuddur. Eləcə də insan azadlıqları sahəsində. İllər uzunu şahidi olmuşuq ki, Azərbaycanda azad söz, azad media, dünyada beynəlxalq hüquq normaları ilə təsbit olunan digər azadlıqlar boğulur. Faktiki, iş o yerə gəlib çatıb ki, hakim rejim özünün təşkilatlarının, ona bağlı olan təşkilatların geniş şəkildə toplaşmasına, insanların fikir mübadiləsi aparmasına şifahi qadağa qoyur. Habelə insan hüququnun durumu istər Penitensiar Xidmətdə, istər məhkəmə proseslərində olsun ciddi şəkildə pozulduğunun şahidi oluruq. Durum nə qədər ağır olsa da, ümidsiz də deyil. Bir gənc olaraq sizi əmin edirəm ki, gənclər bu istiqamətdə təşkilatlanmağa başlayıb. Hüququn bizə imkan verdiyi bütün istiqamətlərdə insan hüquq və azadlığının qorunması uğrunda mübarizə aparacağıq.

***- Diffamasiya haqqında qanunun qəbuluna münasibətiniz necədir?***

- Azərbaycanda diffamasiya və ya ifadə azadlığı haqqında qanunun qəbulu barədə müzakirələr getdi. İctimaiyyət nümayəndələrindən bu fikri dəstəkləyənlər də oldu, əleyhinə çıxanlar da. Əslində bu demokratik və inkişaf etmiş dövlətlərin təcrübəsidir. Azərbaycan CM-in 147; 148 və 323-cü maddələrinin qüvvədən düşməsini hədəfləyir. Yəni insanin hər hansı formada, istər yazılı, istərsə şifahi təhqir olunması, şəxsiyyətinin alçaldılması zamanı məsuliyyətin nəzərdə tutulmamasıdır. Bəzi ekspertlərin rəyinə görə, diffamasiya haqqında" qanunun qəbul edilməsi hakimiyyətə əlavə imkanlar yaradır ki, jurnalistlərə qarşı qanuni yox, qeyri-qanuni üsullardan istifadə etsin. Əvvəl jurnalistlər qanunin müvafiq maddələri tətbiq edilərək basqı görürdülər, həmin maddələrə əsasən ittiham irəli sürülərək həbsə atılırdısa, qanunun qəbulundan sonra onları cəzalandırmaq üçün konstitusiya və qanunlarda nəzərdə tutulmayan metodlardan istifadə edilə bilər. Bu qorxulu bir hala gətirib çıxara bilər. Lakin biz istənilən halda Azərbaycanda mövcud olan qanunları və qanunlar külliyyatını sivil dünyanın prinsiplərinə, beynəlxalq normalara uyğunlaşdırmalıyıq. İctimaiyyət buna hazır olmadığı üçün bir az zaman tələb edəcəyi də bəzi fikirlərdə səslənir. Mən də bununla razılaşıram ki, ictimaiyyət buna hələ hazır deyil. İctimai rəyi yaratmaq da qəbul olunan qanunlardan asılıdır.

***- Ölkədə sərbəst toplaşmaq hüququ, sizcə, təmin olunubmu?***

- Ölkədə sərbəst toplaşmaq hüququ hal-hazırda elə bir vəziyyətdədir ki, adi sosial şəbəkələrdə insanlar status yazarkən onların bəyənmə sayı 200-300-ü aşırsa, artıq onlar hakimiyyətin qınaq obyektinə tuş gəlirlər və nəzarətə götürülürlər. Hətta onlar polis şöbələrinə çağırılır, xəbərdarlıq edilir və hədə qorxu gəlinir. Bununla bağlı yetəri qədər faktlar var. "layk"-ların sərbəst toplaşma hüququ olmayan bir ölkədə insanların sərbəst toplaşma hüququndan söhbət gedə bilməz. Hakimiyyətdə insanların sərbəst fikir mübadiləsinə və tənqidi fikrinə dözümsüzlük var. Hakimiyyət bəzi məqamlarda sanki sərbəst toplaşmaq hüququnu təmin olunurmuş kimi göstərməyə çalışır. Bizim bəzi yoldaşlarımız var ki, onlar hakimiyyətdən izin alıb mitinq keçirirlər. Hakimiyyətdə bunu böyük bir həvəslə dünya ictimaiyyətinə təqdim edir ki, bizdə müxalifət vaxtı-vaxtında, istədiyi zaman istədiyi yerdə mitinq keçirə bilir. Biz buna şərait yaradırıq və mitinqçilərin təhlükəsizliyi polis tərəfindən qorunur. Əslində isə gerçəklik tam başqadır.

***- Gələcək planlarınız nədən ibarətdir?***

- Hazırda mövcud ictimai-siyasi situasiya ilə ayaqlaşmalıyıq. Azərbaycanda insan hüquq və azadlıqları təmin olunması həqiqətən həqiqətən də ciddi bir problemdir. Biz fəaliyyət planımıza xüsusi olaraq onu da nəzərdə tutmuşuq ki, insan hüquq və azadlıqları ilə bağlı ictimaiyyət arasında, xüsusilə gənclər arasında geniş maarifçilik işi aparaq. Eyni zamanda Ümid Partiyası olaraq Azərbaycanda gəncliyin müxalif düşərgəyə gəlməsi və bu sahədə öz sözünü deməsi, birləşməsi fəaliyyət planımıza daxildir.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Etirazçılar üçün yol xəritəsi

Zamin HACI
zaminhaci@gmail.com

**25 nəfər Qəbələ rayon sakini üzləşdikləri hansısa haqsızlığa etiraz məqsədilə Ağdamda cəbhə xəttini keçmək istəyərkən saxlanılmışlar. Polis faktı təsdiqləyib, ancaq Qəbələ Rayon İcra Hakimiyyəti bunu yalan adlandırıb, belə şey olmadığını deyib. Elə rayon icra hakimiyyətinin 25 zəhmətkeşə bu cür laqeyd, görməz münasibəti onların şikayətlərində haqlı olmasının bir sübutudur. Ancaq adını çəkmək istəmədiyim bir hüquq müdafiəçimiz (başqa adları çəkə bilmirəmsə, onun adını niyə çəkim - qoy kef eləsin) hadisəyə biabırçı münasibət bildirmişdir. Sitat: "Həmin 25 nəfərin hərəkəti Azərbaycanın dünyadakı imicinə zərbədir. Əgər onların hüquqları pozulmuşdusa, İrana, Gürcüstana da keçə bilərdilər, bu daha asan idi".**

Birincisi, adamlar etiraz aksiyası keçiriblər, alverə və ya xəstəxanaya getmirdilər ki, Gürcüstana, İrana keçsinlər!? İkincisi, guya Gürcüstan və İrana keçmək asandır? Mən təklif edərdim hörmətli "hüquq müdafiəçimiz" internetdə axtarış versin, həmin dövlətlərlə sərhəd qapılarımızda yaranan biabırçılığı, növbələri, basabası gözüylə görsün. Üçüncüsü, imicimizə gələndə... Bunu axırda yazaram.

Ancaq jurnalistlərin hadisəni çatdırmasında da ciddi yanlışlıq vardı. Yazmışdılar: "25 Qəbələ sakini Ağdamdan Ermənistana keçmək istədi". Axı Ağdamın Ermənistanla sərhədi yoxdur! "Ermənistanın işğal etdiyi ərazimizə keçmək istədilər" yaza bilərdilər. Bunlar tamam fərqli şeylərdir, üstəlik, hadisənin nəticələrinə, adamlara hakimiyyətin vermək istədiyi cəzalara təsir edir. Çünki Qəbələ sakininin Ağdama getməsi tamamilə təbii hüququdur. Eyni məntiqlə, biz hazırda separatçıların əsirliyində saxlanan Dilqəm və Şahbaz adlı vətəndaşlarımızı hansı əsasla müdafiə edirik? Belə çıxır ki, Kəlbəcərə getməklə onlar da Ermənistan sərhədini pozublar?

Əlbəttə, belə "hüquq müdafiəçiləri" olan ölkənin elə də "jurnalistləri" olar və bu ölkədən toplu halda başını götürüb hara gəldi qaçmaq təbii görünür. Yeri gəlmişkən, dünən bir adını çəkmək istəmədiyim jurnalist (vəziyyət çətindir) isə yol polisinin maşını ilə dalaşan və tutulan vətəndaşı qınamışdı, yazmışdı ki, nə olsun polis səni bezdirir, gərək belə hallarda ürəyində 10-a qədər sayasan. Əla məsləhət idi. Respublikamız inkişaf elədikcə belə məsləhətlərdən çox görəcəyik. Bəlkə də manat növbəti devalvasiyaya uğrayanda biz gözümüzü yumub çəpərdən hoppanan qoyunları saymaqla böhrandan çıxacağıq.

Ta prosesə qoşulmuşuqsa, biz də şikayətçi Qəbələ sakinlərinə, həmçinin gələcəkdə bu tip etiraz aksiyalarına qoşulacaq zəhmətkeşlərimizə məsləhətlər, necə deyərlər, "yol xəritəsi" verək.

İlk növbədə, etiraz aksiyasına ağ bayraqla getməyin, bu, Qarabağ Bazarlıq Təşkilatının xoşuna gəlmir. Üçrəngli bayrağımızla da düşmən qapısına getmək düz deyil, qanunla qadağandır. Ən yaxşısı budur Almaniyanın bayrağı ilə gedəsiniz, çünki onsuz Almaniya dağılır.

İkincisi, yaxşı olar hər kəs öz şikayətinin mahiyyətinə uyğun territoriya seçsin. Əgər səni Qəbələdə sıxışdırırlarsa, Ağdamda nə ölümün var? Get Tufandağa, xizək geyin, sürüşərək etiraz et! Qoy düşmən tərəfə ağdamlı etirazçılar keçsin. O cümlədən, sosial durumu ağır neftçilər dənizdə intihar etməlidirsə, Bakının Sabunçu rayon zəhmətkeşlərinin də Koroğlu körpüsünə çıxmaq kimi insan hüquqları vardır. Yoxsa daşkəsənli gəlsin Səbayeldə etiraz eləsin, nə bilim, sumqayıtlı özünü Kürə atsın - bunlar xaos yaradır, dövlətçiliyimizi dağıdır. Hətta imicimizə ziyandır! Axı bu saat dünyada bizim çox yaxşı imicimiz var, bizi ərazisini qoruya bilməyən, rüşvət bataqlığında boğulan, valyutası çezən, insanları xaricə qaçan, qaça bilməyənlərin türməyə doldurulduğu dövlət kimi tanımırlar.

İndi söz əlaqədar etiraz aksiyası iştirakçılarınındır.

# Azərbaycan Rusiya-Türkiyə "mehriban düşmənçiliyi"nin məngənəsində - mühasirə daralır...

## Ankara-Moskva münasibətlərində artan gərginlik Bakının manevrlərini ağırlaşdırır; **rusiyalı politoloq Putinin Əliyevə son zəngləri barədə:** "Əminəm, o, İlham Əliyevin Türkiyə əleyhinə addımlar atmasına çalışır..."



**Cənubi Qafqazla bağlı ötən həftənin ən mühüm olayı şübhəsiz ki, NATO baş katibinin SSRİ-nin çöküşündən sonra ilk dəfə Gürcüstana gəlməsi və burada alyansın təlim mərkəzinin açılması oldu. Aparıcı Qərb mətbuatı bunu dərhal "misli görünməmiş hadisə", "NATO-nun Qafqaza" girişinin başlanğıcı kimi qiymətləndirdi.**

Ötən ilin noyabrında yaşanan "Su-24" insidentinə görə Türkiyə ilə Rusiya arasında gərginlik davam edir və hətta artmaqdadır. Bu gərginliyin növbəti göstəricisi Türkiyə Böyük Millət Məclisinin Rusiyanı parlamentlərarası birgə dostluq qrupuna qəbul etməməsi sayıla bilər. Bununla bağlı TBMM-in İdarə Heyəti artıq qanun layihəsini qəbul edib.

Qanun layihəsində 129 ölkənin parlamentləri ilə birgə dostluq qrupunun yaradılması nəzərdə tutulub. Lakin Rusiya ilə yanaşı Ermənistan, Suriya, İsrail və Misir də parlamentlərarası dostluq qrupuna qəbul edilməyib. Bu da o anlama gəlir ki, parlament sadalanan ölkələri Türkiyə üçün dost hesab etmir. Hərçənd 4 ölkədən ən çox ikisinin - Rusiya və onun satelliti Ermənistanın qardaş ölkəyə düşmən münasibətindən danışmaq daha ədalətli olar.

Elə Rusiyada da Türkiyəyə qarşı təxminən eyni ovqat və ab-hava hökm sürür. Ümumrusiya İctimai Rəyi Öyrənmə Mərkəzinin apardığı yeni, ən son sorğunun nəticələrinə görə, rusiyalıların əksəriyyəti ən azından Türkiyə rəsmən üzr istəyənədək onu məlum insidentə görə bağışlamaq fikrində deyil. Bu barədə qurumun saytında yerləşdirilmiş materialda deyilir.

Belə ki, respondentlərin 63%-i əmindir ki, Türkiyəyə qarşı tətbiq edilən iqtisadi-ticari məhdudiyyətlər saxlanmalıdır. 3/4-ü (78%) isə Ankara vurulan "Su-24"ə görə rəsmi üzrxahlıq etməyənədək ona hər hansı güzəştin edilməsinin əleyhinədir. Bu zaman rəyi soruşulanların yarıdan bir az çoxu Türkiyə-Rusiya münaqişəsində məhz Ankaranı uduzan tərəf saydığını söyləyib. Təxminən 1/3 (35%) hesab edir ki, heç bir tərəf uduşda deyil.

Sorğu Rusiya Federasiyasının 46 vilayət, diyar və respublikalarının 130 yaşayış məntəqəsində, 1600 nəfər arasında keçirilib.

***

Göründüyü kimi, hər iki tərəfdə bir-birinə qarşı, yumşaq desək, qeyri-dost münasibət qalmaqdadır. Sorğunun nəticələrinə inansaq, Rusiya toplumunda ədavət hissi daha güclü müşahidə edilir - hərçənd əksər siyasi və iqtisadçı analitiklərə görə, Moskvanın tətbiq elədiyi məhdudiyyətlərdən onsuz da sanksiyalar altında olan Rusiyanın iqtisadiyyatı, əhalisi əslində daha çox ziyan görür. Belə görünür ki, rəsmi Kremlin təbliğat maşını dolanışığı, güzəranı getdikcə ağırlaşan rusiyalıların beynini "obrabotka" etməyi bacarır. Yəni "Ac olaq, kişi olaq" məsəli...

İki böyük dövlətin arasında hökm sürən gərginlik isə sözsüz ki, ən çox Azərbaycanı - həm Türkiyə, həm də Rusiya ilə bir çox sahələr üzrə yaxın əlaqələrə malik ölkəmizi çətin duruma qoyur. Söhbət həm də Suriya (Yaxın Şərq) böhranı ilə bağlı Ankara və Moskvanın diametral zidd maraqlar güdməsi üzündən rəsmi Bakının üzləşdiyi durumdan gedir.

Bir sıra təhlilçilər Rusiya prezidenti Vladimir Putinin ötən həftəsonu öz azərbaycanlı həmkarı İlham Əliyevə iki dəfə zəng etməsinin motivini həm də məhz Rusiya-Türkiyə "mehriban düşmənçiliyi" kontekstində izah eləməyə çalışırlar *(ona görə "mehriban düşmənçilik" ki, iki ölkə arasında hər necə olmasa, diplomatik əlaqələr qalır, səfirlər işləyir, Rusiya müqavilə əsasında Türkiyəyə təbii qazın verilişini davam etdirir).*

Məsələn, iki prezident arasında son telefon danışıqlarını rusdilli vesti.az saytına şərh edən tanınmış rusiyalı siyasi xadim, "Həmrəylik" hərəkatı Siyasi Şurası Federal Bürosunun sabiq üzvü, Rusiya müxalifəti Koordinasiya Şurasının keçmiş üzvü Andrey Piontkovski bu zəngləri ən əvvəl Rusiya-Türkiyə münasibətlərindəki son böhranlı durumla əlaqələndirib. **"Əminəm, o, İlham Əliyevin Türkiyə əleyhinə hansısa addımlar atmasına çalışır. Ancaq burda mənim yadıma Tatarıstan prezidentinin bir sitatı düşür. O, belə bir fikir söyləmişdi ki, "federal avantüristlərin məhsuldar tatar-türk əlaqələrinə ziyan vurmasına imkan verməyəcək". Rusiya regionlarının rəhbərləri çoxdan Moskva ilə bu dildə danışmırdılar"**, - deyə politoloq qeyd edib.

**"Putinlə danışıqlar zamanı Azərbaycan prezidenti yəqin ki, olduqca nəzakətli olub. Ancaq fikrimcə, o, öz həmsöhbətinə həm də onu anladıb ki, Moskvanın nazına uyğun hərəkət edib qardaş ölkə ilə münasibətləri korlamaq fikrində deyil"**, - əlavə edib rusiyalı ekspert.

Analitik bu xüsusda telefon zənglərinin Moskvanın Ermənistana 200 milyon dollarlıq silah ötürməyə hazırlaşması ilə bağlı Azərbaycanın Rusiyaya nota verməsindən sonraya təsadüf etməsinə də diqqət çəkib. **"Bakının notası - onun nümayişidir ki, Azərbaycan daha özünü Moskvanın həqiqətən də onun strateji tərəfdaşı olması kimi aparmaq niyyətində deyil"**, - deyə o , fikrini tamamlayıb.

***

Rusiyalı ekspertin söylədiklərində həqiqət payı əlbəttə ki, ciddidir. Bir çox digər siyasi şərhçilər də Ankara-Moskva münasibətlərinin hazırkı gərgin səviyyədə qalacağı təqdirdə Bakı üçün iki tərəf arasında əvvəlki tək uğurlu şəkildə balans yaratmağın çətin olacağına əminlik ifadə edirlər. Azərbaycan paytaxtında dünən başlanan və mahiyyət etibarilə Rusiyanın bölgədəki energetik və digər maraqlarına zidd olan qaz sammiti bu qənaəti gücləndirir ki, zəifləmir.

❑ Analitik xidmət

# Azərbaycan, İran və Rusiya xarici işlər nazirlərinin üçtərəfli görüşü keçiriləcək

**"Tezliklə Azərbaycan, İran və Rusiya xarici işlər nazirlərinin üçtərəfli görüşü keçiriləcək. Bu görüşdə prezidentlər İlham Əliyev və Həsən Ruhaninin Tehran görüşündəki razılaşmaların icrası məsələsi müzakirə olunacaq".**



Bunu APA-nın İran bürosunun sualına cavabında İran Xarici İşlər Nazirliyinin sözçüsü Hüseyn Cabiri Ənsari deyib. Həftəlik brifinqdə çıxış edən H. C. Ənsari bildirib ki, əməkdaşlığın xüsusilə ticarət və iqtisadiyyat sahələrində gücləndirilməsinə önəm verilir. O qeyd edib ki, Azərbaycan və İran prezidentlərinin Tehrandakı razılaşmalarının icrası iki ölkənin bir-biri ilə əlaqələrinin daha da inkişafı ilə yanaşı, həm də digər qonşu ölkələrlə əlaqələrin inkişafına təkan verəcək: "Prezident İlham Əliyevin Tehrana səfərinin iki dost və qardaş ölkə arasında əməkdaşlığın inkişafına böyük təsiri olacaq".

**H. Cabiri Ənsari Azərbaycanın iranlılar üçün viza rejimini ləğv edib-etməyəcəyi barədə suala cavabında deyib ki, Azərbaycan tərəfinin hələlik belə bir fikri yoxdur:** "Bu haqda yeni məlumat olarsa, elan edəcəyik".

**Suriyada atəşkəsin pozulmasına toxunan sözçü buna bəzi terrorçu qrupların yol verdiyini söyləyib:** "Bu, ondan irəli gəlir ki, atəşkəsin pozulması həmin qrupların mənafeyinə uyğundur. Suriyada rolu olan ölkələrdən tələb edirik ki, necə ki, sülhlə bağlı razılığa gəliblər, əməldə də sülhün icrasına yardım etsinlər".

H. Cabiri Ənsari İranın Suriya və İraqda hərbi iştirakına dair suala cavabında bildirib ki, İran bu iki ölkə ilə daim məsləhətləşmələr aparır və atılan addımlar həmin ölkə hökumətlərinin istəyi ilə həyata keçirilir. Onun sözlərinə görə, İranın bu ölkələrlə məsləhətləşmələri davam etdirməsi böhranın durumundan və həm onların, həm də İranın istəyindən asılıdır.

# ABŞ-la münasibətlərdə "top" Azərbaycanın meydanındadır

## Tanınmış analitik hakimiyyəti şansı əldən buraxmamağa çağırdı: "Siyasi məhbusların azad olunması İlham Əliyevin Vaşinqton səfərini daha sanballı edə bilər..."

**Azərbaycanla ABŞ-ın münasibətlərində müəmmalı vəziyyətə prezident İlham Əliyevin martın sonunda Barak Obamanın dəvəti ilə gerçəkləşəcək Vaşinqton səfərinin son qyub-qoymayacağı ilə bağlı siyasi analitiklər müxtəlif fikirlər bildirirlər. Bu mövzuda danışan "Atlas" Araşdırmalar Mərkəzinin sədri Elxan Şahinoğlu öncə xatırlatdı ki, 2010-cu ildə də belə bir nüvə təhlükəsizliyi konfransı Vaşinqtonda keçirilib: "O zaman Barak Obama Azərbaycan prezidentini həmin toplantıya dəvət etməmişdi. Halbuki Gürcüstan və Ermənistan prezidentlərini dəvət etmişdi.**

O dövrdə də ABŞ-ın demokratiya və insan haqları məsələləri ilə bağlı Azərbaycan hakimiyyətinə çox sərt tələbləri var idi. İndi üstündən xeyli vaxt keçib, Azərbaycan prezidentini Barak Obama nüvə təhlükəsizliyi konfransına dəvət edir. Bu, mesaj xarakterli dəvət ola bilər ki, Azərbaycanın əhəmiyyətini ABŞ yüksək qiymətləndirdiyini göstərmək istəyir. Sadəcə, Azərbaycana belə bir incə mesaj da göndərirlər ki, əgər yaxın bir ayda siyasi və mübahisəli məhbus adlandırılan insanları həbsdən azad etsə bu, İlham Əliyevin Vaşinqton səfərinin əhəmiyyətini bir az da daha artıracaq. Bu, bizim dövlət başçısının özünə də lazımdır ki, Vaşinqtonda yalnız nüvə təhlükəsizliyi konfransında iştirak etməsin, Barak Obama ilə təkbətək fikir mübadiləsi apara bilsin. Bu bir şansdır ki, Vaşinqtondakı konfrans çərçivəsində Barak Obama ilə ikitərəfli danışıqlar aparılsın. Azərbaycan yaxın müddətdə ABŞ-ın əsas şərti olan siyasi və mübahisəli məhbuslar məsələsinə aydınlıq gətirsə, daha çox adları hallandırılan insanlar həbsdən azad olunsa, bu amil prezidentin ABŞ səfərinin əhəmiyyətini artıracaq və Barak Obama ilə təkbətək görüş imkanı yaradılacaq. Bu addım atılmasa, düşünürəm ki, Vaşinqton səfəri ancaq konfransla yadda qalacaq".

**Ekspert qeyd etdi ki, siyasi və mübahisəli məhbus məsələsinin həlli başqa istiqamətdə də Azərbaycana xeyir gətirə bilər:** "Bu, Kristofer Smitin Azərbaycana və onun hakimiyyətinə sanksiyaları nəzərdə tutan qanun layihəsinin Konqresin müzakirəsinə çıxarılmasının qarşısını ala bilər. Yəni top Azərbaycan hakimiyyətinin meydanındadır. Hakimiyyət üçün gözəl şans yaranıb ki, bir iki addımı atmaqla çox ciddi bir neçə problemin yoluna qoyulmasına nail olunsun".

**E.Şahinoğlu vurğuladı ki, artıq bu gün ABŞ-da kimsə Azərbaycanda rəngli inqilablar düşüncəsində deyil. Əksinə, Azərbaycanla pozitiv mənada əməkdaşlığın genişlənməsində, islahatların aparılmasında maraqlıdırlar:** "Bu baxımdan hesab edirəm ki, münasibətlərdə heç də uçurumlu durum yoxdur. Sadəcə, bir istiqamət var ki, o, münasibətlərə hələ də kölgə salır. Bu, ABŞ-ın Azərbaycanla əməkdaşlıq etdiyi üçüncü istiqamət - insan haqları və demokratiya məsələsidir. Azərbaycanda siyasi məhbus məsələsinə son qoyulsa, bəzi siyasi islahatlara gedilsə, ABŞ-Azərbaycan münasibətlərində qeyd etdiyimiz həmin çatışmayan istiqamətdə pozitiv inkişaf edəcək".



**"Azərbaycan hakimiyyətinə sərt münasibət sərgiləməsi məsələsini qaldıran Riçard Kozlariç, Devid Kremer və Ariel Koen kimi siyasətçilərin ABŞ administrasiyasının rəsmi siyasətinin müəyyənləşməsinə təsiri olurmu" sualına ekspert belə cavab verdi:** "Ariel Koen ABŞ hakimiyyətinə çağırışlar edir ki, Azərbaycanda demokratiya qurulması üçün onunla əlaqələri sıxlaşdırmaq lazımdır. Kozlariç və digərləri isə demokratiya və insan haqları məsələsində təzyiqlərin artırılmasını önə çəkirlər. ABŞ Dövlət Departamenti təcrübəsi olan bu cür insanları dinləyir. Amma özü qərar verir ki, hansı istiqamətlərə önəm vermək lazımdır. Bu gün Amerika üçün əsas olan geosiyasi maraqlardır. Geosiyasi maraqlarda Azərbaycanla sıx əməkdaşlıq mövcuddur".

**ABŞ dövlət katibinin müavini Viktoriya Nulandın Azərbaycana sonuncu səfəri zamanı yaradılan ortaq komissiyanın fəaliyyətinin, əhəmiyyətinin olub-olmadığına gəlincə, E.Şahinoğlu bu komissiyanın nəyəsə nail olduğu barədə məlumata malik olmadığını dedi:** "Görünür, Azərbaycan hakimiyyəti o zaman Nulanda yox deməmək üçün bu komissiyanın yaradılması əleyhinə çıxmayıb. Amma komissiyanın hansısa cidi addımlar atdığı barədə məlumat yoxdur. Ortaq komissiya heç bir iş görməyibsə belə, Novruz bayramında verilməsi arzulanan əfv əslində bu komissiyanın da işinin məntiqi müsbət yekunu kimi ola bilər".

**Həmsöhbətimiz Azərbaycanın son vaxtlar İran və Rusiya ilə daha da yaxınlaşmasının prezidentin səfəri öncəsi ABŞ-la münasibətlərə soyuqluq gətirə biləcəyi barədə iddiaları bölüşmür:** "Bəlkə də təəccüblü səslənəcək, mən düşünürəm ki, Azərbaycan prezidentinin İrana səfəri, Rusiya prezidentinin ard-arda Azərbaycan prezidentinə zəng etməsi, müzakirə aparması əslində ABŞ-ın da xeyrinədir. Niyəsinə gəlincə, İran üzərindən sanksiyalar götürülüb, İran prezidenti özü Avropa Birliyi ölkələrinə səfər etdi, böyük müqavilələr imzaladı, ABŞ bunların əleyhinə çıxmadı. Əksinə, ABŞ İranın müasirləşməsini, dünya birliyinə inteqrasiyasını istəyir, sanksiyaları həm də buna görə götürüb. Artıq ABŞ İranı özünün baş düşməni hesab etmir. Bu baxımdan İran-Azərbaycan münasibətlərinin inkişafı Amerikanın xeyrinədir. Çünki gələcəkdə İran öz qazını Azərbaycan və Türkiyə üzərindən daşıya bilər. Yaxud Rusiya ilə İranı birləşdirən dəmiryol xəttinin Azərbaycandan keçməsi də ABŞ-ın maraqlarına uyğundur. Təsadüfi deyil ki, Azərbaycan prezidenti İrandan geri qayıtdıqdan sonra ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta enerji naziri Natiq Əliyevlə görüşdü, ABŞ-la Azərbaycanın əməkdaşlığı haqqında fikir mübadiləsi oldu. Məndə belə bir təsəvvür yarandı ki, Sekuta bu əməkdaşlıqdan məmnun qalıb.

Rusiya-Azərbaycan əməkdaşlığı da ABŞ-ın maraqları əleyhinə deyil. Əksinə, ABŞ başa düşür ki, Rusiya təhlükəli siyasət yürüdür - Gürcüstanı, Ukraynanı parçalayıb, Suriyada hərbi varlığını qoruyur, Türkiyə ilə gərgin münasibətlərdədir. Vaşinqton istəməz ki, Rusiya bu cür təhlükələri Azərbaycana da yaşatsın. Ona görə də ABŞ Azərbaycanın Rusiya ilə bağlı apardığı siyasətin əleyhinə deyil. Onsuz da təhlükəsizlik və enerji sahəsində Azərbaycan məhz ABŞ-la əməkdaşlıq edir".

❑ **Etibar SEYİDAĞA**



Donald Tramp



Hillari Klinton

# ABŞ prezidenti kim olsa, Azərbaycan qazanar?

## Ekspertlərin fikirləri haçalanır, çünki...

**2016-cı il ABŞ prezident seçkiləri ərəfəsində 1 mart tarixi önəmli gün kimi qeyd olunub. Belə ki, həmin tarixdə eyni vaxtda 11 ştatda ilkin seçkilər və partiya fəallarının yığıncaqları keçiriləcək. Bu, prezident postuna namizədlik uğrunda mübarizənin mühüm mərhələsi sayılır.**

Rəqabət aparan namizədlər içərisində daha çox respublikaçılar düşərgəsindən Donald Trampın, demokratların cərgəsində isə Hillari Klintonun liderliyi müşahidə olunur. Bəs rəsmi Bakı üçün bu iki namizəddən hansının prezident seçilməsi sərfəlidir?

**Politoloq Fərhad Mehdiyev** "Yeni Müsavat"a bildirib ki, Azərbaycan hökuməti üçün Trampın seçilməsi daha sərfəli olacaq: "Tramp seçilərsə o, daha çox hökumətlə yaxın olacaq. Onun müsəlmanlara qarşı fikirlərinə gəlincə isə Azərbaycan əslində bu coğrafiyada tam müsəlman ölkəsi kimi qəbul olunmur. Bizdə xalqın dindarlıq göstəricisi, məscidlərin sayı və digər bu kimi amillər bunu deməyə əsas verir. Ona görə də Trampın seçiləcəyi təqdirdə ölkəyə qarşı bu aspektdən hər hansı pis münasibətin olacağını güman etmirəm. Klintona gəlincə, o, demokratik düşərgəyə daha yaxın şəxsdir. Bu baxımdan belə nəticəyə gəlmək olar ki, Azərbaycan hökuməti üçün Trampın, müxalifətə görə isə Klintonun seçilməsi sərfəlidir. Rusiya ilə münasibətlərə gəlincə, hesab edirəm ki, Tramp seçilərsə, Amerika anti-Rusiya siyasətini daha qəti şəkildə ortaya qoyacaq. Bu hal isə Rusiyanın Azərbaycana təsirini bir qədər azaldacaq. Klintona seçiləcəyi təqdirdə isə bir qədər fərqli olacaq. Diqqət etsək görərik ki, demokratların xarici siyasəti respublikaçılar qədər antirus xarakterli olmur. Yəni məsələni bu tərəfdən də nəzərə almaq lazımdır".

**Politoloq Mübariz Əhmədoğlu isə "Yeni Müsavat"a açıqlamasında söyləyib ki, Azərbaycanın ABŞ-la münasibətləri elə səviyyədədir ki, kiminsə prezident olmasının bu münasibətlər üçün elə də böyük təsiri yoxdur:** "Builki seçkilərdə geosiyasi fon hədsiz dərəcədə polyarlaşıb. Bu baxımdan hesab edirəm ki, MDB ölkələrinin bu seçkilərə marağı, təsiri, iştirakı o qədər də böyük əhəmiyyət kəsb etmir. Onlar, ümumiyyətlə, heç bir MDB dövlətinin adını çəkmirlər. Bütövlükdə Rusiyanı qeyd edirlər. Biz özümüz ABŞ-la münasibətlərimizə müəyyən istiqamət verə bilirik. Marağımıza uyğun olaraq ABŞ-la münasibətlərimizi qurub, siyasətimizi yürüdürük. Tramp müsəlmanların əleyhinədir. Ancaq hesab edirəm ki, o başa düşür ki, bütün müsəlmanlar pis deyil. Klinton isə Ermənistan-Azərbaycan münasibətlərini, Dağlıq Qarabağ məsələsini çox əla bilir. Ancaq təəssüf ki, bu mövzuda onun mövqeyi tam ədalətli, beynəlxalq hüquq normalarına uyğun deyil. Bu, onun regiona sonuncu səfərində də açıq şəkildə göründü. Adi bir misalı deyək ki, səfər zamanı o, Azərbaycanda bir neçə saat qaldı, ancaq Ermənistanda gedib qondarma erməni soyqırımının abidəsini də ziyarət etdi. Hazırda Azərbaycan dövləti yetəri qədər güclüdür və istənilən tərəfdən gələn münasibəti dəyərləndirməyi, reaksiya verməyi bacarır. Obama hakimiyyəti dövründə də bir neçə dəfə ABŞ-Azərbaycan münasibətləri dəyişdi və son olaraq müsbət məcraya gəldi. Bu baxımdan kim seçilərsə, iki ölkə arasında münasibətlər normal davam edəcək".

**Politoloq hesab edir ki, Trampın şansı daha çoxdur:** "Amerika dəyişiklik istədiyi, fərqli fikir eşitmək üçün Obamaya səs verdi. İndi də Tramp fərqli fikir sərgiləyir. Meksika ilə bağlı, müsəlmanlara, Rusiyaya münasibətdə fərqli mövqe ortaya qoyur. Doğrudur, bəziləri bildirirlər ki, Klinton qadındır və fərqli tərəf budur. Ancaq hesab edirəm ki, Trampın təklif etdiyi dəyişikliklər Amerika üçün daha maraqlıdır. Klinton ermənilərlə yaxınlığını nümayiş etdirsə də, görünən budur ki, ABŞ-dakı heç bir erməni diasporu, təşkilatı ona dəstək deyil".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 48 (6369) 1 mart 2016



# Amerikanın Tramp problemi...

Hüseynbala SƏLİMOV

**Bəlkə də ABŞ-dakı ilkin seçkilər ilk baxışda yalnız siyasi təhlilçilər üçün maraqlı görünə bilər, çünki adi, sadə adamlardan fərqli olaraq onlar həm də bu dünyada baş verən prosesləri anlamaq yükünü çəkirlər. Düzdür, bu maraq prinsip etibarilə heç nəyi həll etmir - seçilənlər də, seçənlər də amerikalılardır.**

Fəqət, hətta Amerikanı qəbul etməyənlər belə haradasa onun dünya dövləti olduğunu qəbul etmək zorundadırlar.

Elə ona görə də maraqlanmaqdan, izləməkdən başqa çarəmiz yoxdur - təbii ki, hamı öz payına düşən qədər. İndi bu məsələ həm də ona görə aktualdır ki, ilkin seçkilərdə ABŞ-ın öz V.Jirinovskisi peyda olub...

Bəli, bəlkə də o, ilk baxışda Vladimir Volfvoviçdən bir xeyli fərqlidir, ən azı ona görə ki, milyardları var, milyardçıdır. Bu isə heç də az şey demir və bizim Vladimir Volfoviçdən fərqli olaraq o, öz sərvətini müxtəlif siyasi xidmətlərin sayəsində qazanmayıb...

Amma ABŞ - da milyardçıların prezidentliyə yolu elə də asan olmur. Bunu sübut etmək üçün hətta yaxın keçmişdən də misallar gətirmək olar. Bu gün isə diqqət çəkən odur ki, hətta ABŞ respublikaçılarının özü növbəti Jirinovskidən - D.Trampdan yaxa qurtarmağın yolunu düşünür. Amma tapa bilmir...

Bəli, hələlik Tramp bütün digər respublikaçıları qabaqlayır. Ona qarşı durmaq iqtidarında ola biləcək adam kimi C.Buş fərz edilirdi. Amma bu adam elə yaxınlarda özünün seçki kampaniyasına “stop!” dedi. Amerikalı təhlilçilər də bunu belə yozdu ki, ölkə Buş familiyalı prezidentlərdən yorulub...

Ola bilər... Amma Tramp üçün də həlledici anlardan biri qarşıdakı çərşənbə axşamı hesab edilir. Həmin gün 13 ştatda respublikaçıların ilkin seçkiləri baş tutmalıdır. Hələliksə ilkin seçki yalnız dörd ştatda olub...

Doğrusu, Tramp məni qorxudur... Bu adam artıq indidən özünün antimüsəlman ritorikası ilə hamının diqqətini çəkib. Düzdür, ilkin seçkilər daha böyük siyasi meydana - prezident seçkilərinə adlamaq üçün bir tramplindir...

Amma kim bilir? Dünyada nələr olmur! Bir daha deyirik ki, hətta respublikaçıların özləri ondan canlarını qurtarmaq istəyirlər. Ona görə ki, nə qədər mühafizəkar olsalar da, nə qədər xristian dəyərlərinə önəm versələr də, bir Amerika dəyərləri deyilən anlayış da var və heç kim həmin dəyərləri belə asanlıqla itirmək istəmir...

ABŞ ənənəvi olaraq mühacirlər ölkəsi olub. Bura gələn insanların dini baxışları, siyasi əqidələri heç kimi maraqlandırmayıb, çünki belə hesab edilib ki, həmin adamlar ABŞ - a məhz öz dini və siyasi əqidlərini reallaşdırmaq və daha azad həyat yaşamaq üçün gəliblər...

Bu, həqiqətən də mühüm məsələdir. Amerika dəyərləri deyilən anlayış da elə ilk növbədə budur...

Mənə elə gəlir ki, ABŞ seçicisi hansısa yolla Tramp problemini həll etməyin yolunu tapacaq. Hər halda, buna çox ümidliyəm...

Tramp gəlsə, müsəlman dünyasına münasibət dəyişə

bilər... Düzdür, respublikaçı siyasətçilər geopoliotika məsələlərinə həmişə daha çox önəm və diqqət verir, ABŞ - ın milli maraqlarının fərqində olurlar...

Fəqət, onların da özəllikləri olur. Elə kiçik Buş da az qorxurtmurdu adamı - bir də görürdən ki, “fövqəlqüvvlər”lə danışıdğını, İsa peyğəmbəri yuxusunda gördüyünü deyirdi. Adam hər dəfə fikirləşirdi ki, görən, onun bu sayıqlamaları nə ilə biətəcək?!.

S.Hüseynlə bağlı dedikləri hələ də yadımdıadır. Başqa bir söz tapmayanda da qayıtdı ki, ən azı o, mənim atamı təhqir etmişdi... Düzdür, S.Hüseyn rədd olmalı və iraqlıların canı ondan qurtarmalı idi. Amma ABŞ prezidentinin bunu əsaslandırmaq üçün şəxsi haqq-hesabdan savayı bir şeyi tapa bilməməsi onda da, elə indi də məni az təəccübləndirmir...

Düzdür, sayıq oxucu deyə bilər ki, kiçik Buş ən azı 907-ci düzəlişin qüvvəsini dayandırdı. Tamamilə doğrudur. Mən də ona görə əvvəldə yazdım ki, respublikaçı siyasi elita həmişə geopolitik nüanslara həssas olur. İndi də buna ümid edirik...

Hər halda, hər şey qarşıdadır. Trampın çarəsini ya seçicilər, ya respublikaçılar, ya da demokratlar tapacaq...

Ümid edirik ki, amerikalılar əvvəldə dediyimiz Amerika dəyərlərinin varlığını bir daha təcrübədə sübut edə biləcəklər...

İndi isə irəli qaçmağın mənası yox. Bir azacıq gözləmək lazım gələcək. Həm də düşünürük ki, o kəslərin ki, əlində gözləməkdən də qeyri bir vasitə var, bu adamlar əllərini yanlarına salıb durmayacaqlar...

# Qərbə maraq niyə azalıb-ekspertlər danışır

**Son aylar Qərblə bağlı məlumatlara Azərbaycan ictimaiyyətinin marağının azaldığı müşahidə olunur. Xüsusilə bu, mətbuatda dərc olunan yazılarda açıq şəkildə özünü büruzə verir. Qərbin Azərbaycanla bağlı hər hansı planı haqda xəbərlər kölgədə qalır. Ekspertlər hesab edirlər ki, bunlara səbəb Qərbin Azərbaycanla bağlı daim ikili siyasət yeritməsidir. Ölkəmizin müxalif cameəsi daxilində də Qərbə maraq günü-gündən azalır. Heç şübhəsiz ki, seçkilər öncəsi Qərbin Azərbaycan müxalifətini dəstəkləməməsi də burada başlıca amildir.**

**Ümid Partiyasının sədri İqbal Ağazadə** hesab edir ki, Qərbin Azərbaycanla bağlı hər hansı hərəkətliliyinə diqqət ayrılmamasının səbəbi ölkə əhalisinin problemlərinin daha çox olmasıdır: “Azərbaycan daxilində Qərbə də, Şərqə də diqqətin azalmasının bircə səbəbi var: ölkə əhalisinin problemləri daha çoxdur. Xalq o problemlərə daha çox diqqət ayırır. İnformasiyalarda ölkə daxilindəki problemlər nə qədər çox verilirsə, insanlar da daha çox oxuyur. Ona görə də Qərb-Şərqdən gələn məlumatlar diqqətdən kənarda qalır. Bunları təbii hesab edirəm. Əvvəllər ölkə daxilindəki vəziyyətdən narahatçılıq çox ifadə olunmurdusa, Qərbdən daha çox danışılırdısa, bu cür xəbərlər daha çox oxunurdu. Amma indi insanların öz problemləri var. Ona görə də digər problemlər kölgədə qalıb”.

**Media eksperti Zeynal Məmmədli bildirdi ki, Azərbaycanda baş verənlər mətbuatda daha çox iz buraxır:** “Mediada çalışanlar Azərbaycan vətəndaşıdırlar. Ona görə də ölkəmizdəki problemlər onların fəaliyyətində daha çox iz buraxır. Harada fəaliyyət göstərməsindən asılı olmayaraq, medianın əsas vəzifəsi yerli həyatı daha çox işıqlandırmaqdır. Bu gün Qərbin Azərbaycana münasibətində baş verənlər oxucunu bir o qədər də maraqlandırmır.



İqbal Ağazadə: “İnsanların öz problemləri var”



Zeynal Məmmədli: “Burada təəccüblü heç nə yoxdur”

Əsas diqqət öz ölkələrində gedən proseslərə olur. Gələcəkləri Azərbaycan insanını daha çox narahat edir. İnsanların problemləri az olanda, yaşayış tərzləri normallaşanda, onlar daha çox dünyaya çıxmağa meylli olurlar. Dünyadan özü üçün müsbət nəsə götürmək üçün bu istiqamətdə maraqlı olurlar. Amma bu gün Azərbaycanda o durum yoxdur. Ona görə də yaşanan mövcud situasiyaya normal yanaşmaq lazımdır. Nəinki Qərbdə baş verənlər, heç Şərqdə də baş verənlər Azərbaycan insanının marağında deyil. İki addımlığımızda Dağıstandır. Orada gedən proseslər bizi maraqlandırırmı? Yaxud qonşu Gürcüstan, eləcə də Ermənistan. Düşmən ölkədə hansı proseslər gedir, əhali nə düşünür, bu suallar xalqımıza yaddır. Digər qonşu ölkə olan Türkiyəyə maraq da eyni vəziyyətdədir. Dünyada gedən proseslərin Azərbaycan oxucusunu maraqlandırmaması ilə bağlı fikirlər səsləndirmək doğru deyil. Nəzərə almaq lazımdır ki, xalqımızı öz çevrəsindəki hadisələr öncəliklə maraqlandırır. Burada təəccüblü heç nə yoxdur. Azərbaycan jurnalisti Qərbdən yazırsa, oxucunun beynində yaranan suallara görə Qərbdən yazmalıdır. Bu suallar cavabını tapmalıdır. Qərbdə gedən proseslərə Azərbaycan prizmasından yanaşıb, bu kontekstdə açmaq lazımdır. Amma bunu biz bacarmırıq. Orada yaşananların bizə nə dərəcədə təsirinin olduğunu açıqlaya bilmirik. Maraqlar itir. Kəskin şəkildə zəif olan maraqlar impuls qazanmır. Burada medianın peşəkarlığı da mühüm rol oynayır. Dünyadakı hadisələrlə bir məhəllədə baş verən hadisəni əlaqələndirməkdə media çətinlik çəkəndə, o təbii hisslərə bu da əlavə olunur”.

❑ Cavanşir ABBASLI

# Hafiz Hacıyev Trampa bənzədilməsindən danışdı

## “O çıxışlarım üçün çox peşmanam”

**Hafiz Hacıyev qalmaqallı açıqlamaları ilə gündəmə gələn amerikalı milyarder Donald Trampın ABŞ prezidentliyə şanslarını dəyərləndirib və maraqlı açıqlamalar verib.**

“Yeni Müsavat”a danışan **H.Hacıyev** Trampı Amerikanı gələcəkdə fəlakətə aparacaq siyasətçi kimi gördüyünü deyib: “Onun yürütdüyü siyasət mənim xoşuma gəlmir. Pulla hər şey həll olunmur. Siyasətdə pul önəmlidir, amma sonradan hakimiyyəti qoruyub saxlamaq, onu inkişaf etdirmək üçün o qədər də önəmli vasitə hesab etmək olmaz. Onun publik çıxışları, verdiyi vədlər Amerika siyasətinə uyğun gəlmir. Fikrimcə, Amerikanın növbəti prezidenti Hillari xanım olacaq. Düşünürəm ki, onun prezident olması həm Amerika, Azərbaycan, həm də dünya üçün daha xeyirli ola bilər. Donald Tramp dəfələrlə ermənilərin müdafiəçisi qismində çıxışlar edən, dırnaqarası soyqırım məsələsini də ortalığa gətirən, eyni zamanda müsəlman dünyasına həqarətlə yanaşanlardan biri olub. Onun ABŞ-da hakimiyyət başına gəlməsi Azərbaycan üçün də xoş vədlər vermir. Amerika xalqı müdrik xalqdır. Onlar dünyada



gedən prosesləri görür, kimin nə danışdığını bilirlər. İnanmıram ki, dünyanı idarə etmək gücünə malik olan dövlət belə bir insanı seçsin”.

**“Azərbaycanda Trampla müqayisə olunacaq siyasətçi varmı” sualımızı partiya sədri bu cür cavablandırdı:** “Bilirəm, nəyi nəzərdə tutursuz, mənim bir az publik çıxışlarımı. Şəxsən mənim prezident seçkilərində etdiyim çıxışların hamısı zaman-zaman gəlib öz yerini tutub. Fikirlərimi ifadə edəndə həmişə gələcəkdə, keçmişdə olan bütün arqumentlərə, faktlara söykənib çıxış etmişəm. Mənim də publik çıxışlarım olub. Hər halda, buna işarə vurursuz. Amma mən millətim, dövlətim üçün çıxışlar etmişəm. Neyləmək olar ki, bizim dövlətin içində ”çörəyi dizinin üstə “ olanlar var, dəyərimizi bilməyən, vaxtilə apardığımız mübarizəyə dəyər verməyən, hər şeyi pulda görən insanlar var.

Bu gün publik çıxışlarıma görə bir az peşmanam. Çox peşman olmuşam ki, niyə o çıxışları etmişəm, niyə özümə kifayət qədər düşmən qazanmışam və qazandığım nə olub? Daha bu cür çıxışlara ehtiyac duymuram. Hər halda, 4-cü dəfə Azərbaycanda prezidentliyə namizəd olacam. Publik çıxışlardan bir qədər kənar olub daha realist, xalqının arzularını ifadə edəcək tonda, Azərbaycanın gələcəyini uğura aparan yol üçün mübarizə aparmaq lazımdır".

**Hafiz Hacıyev milyarder Tramp qədər sərvətə malik olsaydı, həyata keçirmək istədiyi arzularından danışıb:** “Əgər Tramp qədər pulum olsaydı qoymazdım Azərbaycan xalqı bu cür səfalət içində yaşasın. Bir manatıma qədər xalqla bölüşüb, onların dərdinə qalardım. Onun sərvəti məndə olsaydı, Qarabağ torpaqlarını azad edərdim, Azərbaycanın paytaxtını Xankəndinə köçürərdim. Kənd və rayonlarda, Bakının küçələrində dilənçi, səfalət içində yaşayan insanların sayının çox olmasına qoymazdım. Qarabağda döyüşən, amma bu gün səfalətdə yaşayan Qarabağ qazilərinə pulsuz evlər verər, bütün kommunal xərclərdən azad edərdim. Nəhayət, bugünkü mətbuatın, televiziyanın inkişafı üçün çalışardım. Çox təəssüf ki, bu qədər pulumuz yoxdur, bir qarnı ac, bir qarnı tox dolanan insanlarıq.

Rusiyada Tramp qədər imkanlı şəxslər çoxdur, lakin onlar da Azərbaycan xalqı üçün deyil, ermənilərə daha çox yardımlar edirlər".

Qeyd edək ki, milyarder Donald Tramp ABŞ-da prezidentliyə respublikaçılardan namizəd olmağa iddialıdır. Artıq dünya ictimaiyyətinə də məlumdur ki, D.Tramp daha çox antimüsəlman ritorikası, qaçqınlara qarşı çıxışları ilə tez-tez gündəmə gəlir. Onun qaçqınlara qarşı sərt mövqeyi hətta Roma Katolik kilsəsinin dini lideri Papa Fransisk ilə aralarında mübahisəyə səbəb olmuşdu.

❑ Xalidə Gəray

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan yenidən bankların kredit faizlərinin çox olmasına toxunaraq Türkiyənin bank sistemini ədalətsiz adlandırıb: "Əgər biz inkişaf edəcəyiksə, bu mərhəmətsiz və ədalətsiz sistemdən daha çox, real sektorun yanında olmamız şərtdir".**

# Türkiyə banklarını ədalətsiz sayan Ərdoğan Azərbaycan banklarına nə deyərdi...

## Rəşad Həsənov: "Azərbaycanda bank faizləri çox yüksəkdir və bu, real sektorun inkişafını əngəlləyən amillərdən biridir"




Ərdoğanın bankların 11-12 faizlik kredit siyasətini ədalətsiz adlandırması Azərbaycanda da analoji mövzunu gündəmə gətirib. Əgər qardaş ölkədə 11-12 faizlə kreditin verilməsi ədalətsizdirsə, bəs Azərbaycanda 30-35, bəzən 40 faizlə kreditlərin verilməsi ədalətlidirmi?

**İqtisadçı ekspert Rəşad Həsənov** bildirdi ki, AKP hökuməti bank sistemi ilə bağlı daha həssasdır və bu, Ərdoğanın kredit faizləri ilə bağlı ilk çıxışı deyil: "Dəfələrlə o, bankların kredit siyasəti ilə bağlı şikayətini bildirib. Ümumilikdə nəzər salsaq, AKP hakimiyyəti dövründə Türkiyədə bankların kredit faizlərinin azaldılması istiqamətində ciddi addımlar atılıb. Təxminən kredit faizləri 40 faizə qədər azaldılıb. Çünki əvvəlki dövrlərdə, kredit faizlərinin orta göstəricisi 20 faizə qədər idi. Ancaq indi 11-12 faiz arasındadır. Bu, əsasən Türkiyədə rəqabət mühitinin formalaşmasından yaranıb. Bank sektorunda nisbətən iqtisadi sabitlik bərpa olundu, bundan sonrakı dövrdə bank sektorunun imkanları genişləndi".

**Ekspert bildirdi ki, Azərbaycanı Türkiyə ilə müqayisə eləmək doğru deyil:** "Çünki Azərbaycanda əvvəllər bank sektorunda mənfəət norması yüksək idi. Yeni manatın illik mənfəət norması bəzən 60-80 faizə qədər yüksəlirdi. Təbii ki, bu müəyyən sektorlara görə dəyişirdi. Bank sektorunda rəqabət mühiti yox idi. Hazırda da bu proses davam edir. Banklar müəyyən qruplaşmaların əlində cəmləşib və onlar vəsaitləri daha bahalı faizlərlə yerləşdirərək, daha çox gəlir götürməyə çalışırlar. Xarici bankların da Azərbaycan bank sektorunda iştirak payı çox kiçikdir və zəifdir".

**R.Həsənovun sözlərinə görə, ölkəmizdə kredit faizlərinin çox olmasının səbəblərindən biri də tələbatın çox olması idi:** "Əsas səbəb real sektorun da maliyyə qaynaqlarına çıxış imkanlarının kifayət qədər məhdud olması idi. Eyni zamanda Azərbaycan iqtisadiyyatında ilkin kapital problemi var idi. Bu isə kreditlə bağlı böyük tələb formalaşdırırdı. Eyni zamanda yaşayış standartlarının dəyişdirilməsi, bu baxımdan insanlar arasında yeni və daha müasir standartlara uyğun yaşama cəhdi istehlak kreditlərinə də ciddi tələb formalaşdırmışdı. İstehlak kreditlərinin həcmi ümumi kreditləşmədə 50 faizdən yuxarı idi. Bu kimi amillər kredit faizlərinin yüksək olmasına gətirib çıxarırdı. Digər tərəfdən, Azərbaycan bank sektorunun gəlirinin 75 faizi məhz kredit gəlirləri hesab olunurdu, bankların digər xidmətlərdən istifadə imkanları məhdud idi. Bu baxımdan da əsas ağırlıq kredit götürənlərin üzərinə düşürdü və faiz dərəcələrinin yüksək olmasına gətirib çıxarırdı".

**Onun fikrincə, məhz aparılan bu yanlış kredit siyasəti nəticəsində Azərbaycan bank sektoru bu gün dərin bir problemlə üzləşib:** "Problemli kreditlərin həcmi sürətlə artır. Onu da qeyd etmək lazımdır ki, banklara olan borcların böyük bir qismi bankların zaman -zaman əhali üzərinə yüklədiyi yüksək faizlərin nəticəsidir. Bəzən insanlar bir bankın borcunu ödəmək üçün başqa bankdan kredit götürməli olurlar. Bəzən bu yolla 3-4 banka müraciət etməli olurlar. Azərbaycanda kredit faizləri sahəsində bank sektoru çox ədalətsizdir. Bununla bağlı dəfələrlə rəsmi və qeyri-rəsmi çağırışlar olsa da, banklar buna laqeyd yanaşdı və bugünkü problemlərlə üz-üzə qaldı".

**Xarici təcrübədən danışan ekspert neqativ mənada Azərbaycanın bank sisteminin analoqu olmadığını vurğuladı:** "Gürcüstanda bank sektorunun imkanları Azərbaycanla müqayisədə daha zəif idi, orada kredit tələbi də aşağı idi. Ancaq buna baxmayaraq banklar 3,5-4 faizlə limitsiz həcmdə ipoteka krediti verirdilər. Azərbaycanda isə dövlətin təşkil etdiyi ipotekanın kredit faizləri 8 faiz idi. Avropa ölkələri ilə müqayisə etsək, orada kredit faizləri 5-8 faiz arasında dəyişir, Amerikada 5-7 faiz arasında dəyişir. Bu baxımdan yanaşsaq, Azərbaycanda vəziyyət kifayət qədər acınacaqlıdır. Bu da ölkədə real sektorun inkişafını əngəlləyən amillərdən biridir. Ölkə 25 ildir bazar iqtisadiyyatına keçib və ondan əvvəlki sistem vətəndaşların əlində kapital formalaşmasını əngəlləyən sistem idi. Kiçik və orta sahibkarlığın inkişafı prioritetdirsə, o zaman insanların ucuz maliyyə qaynaqlarına çıxış imkanları təmin olunmalıdır. Qeyri-neft sektorunu inkişaf etdirmək istəyiriksə, biz mütləq kredit siyasətini tənzimləməliyik".

❑ **Nərgiz LİFTİYEVA**



# Kredit reytinqinin enməsi - ölkə borc alanda da problem yaşanacaq...

## Ekspertlərin sözlərinə görə, yatırımla bağlı ciddi problemlər olan Azərbaycanda bu qərardan sonra vəziyyət daha da pisləşəcək...

**"Fitch Ratings" agentliyinin Azərbaycanın kredit reytinqini "BB+" səviyyəsinə endirməsi ekspertlər tərəfindən müxtəlif prizmalardan qiymətləndirilib. Xatırladaq ki, Azərbaycanın əvvəlki reytinqi "BBB-" səviyyəsində dəyərləndirilirdi. "Fitch" reytinqin endirilməsini ölkə iqtisadiyyatının karbohidrogen ehtiyatları ilə bağlı olması, neftin qiymətinin ucuzlaşması və valyuta ehtiyatlarının azalması ilə izah edir. Reytinq üzrə proqnoz "mənfidir".**

**Ekspert Fikrət Yusifov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, neftin qiymətlərinin kəskin şəkildə aşağı düşməsi fonunda beynəlxalq reytinq agentlikləri tərəfindən Azərbaycanın kredit reytinqinin aşağı salınacağı gözlənilən idi: "Məlumdur ki, bu səbəbdən Azərbaycan kifayət qədər möhkəm valyuta daxilolmalarından məhrum olub. Reytinqin aşağı salınmasının əsas səbəbi də budur. Digər tərəfdən, reytinq təşkilatları heç şübhəsiz ki, qiymətləndirmə zamanı yaranmış vəziyyətdə ölkədə aparılan iqtisadi islahatları və bank sektorundakı durumu da əsas amillərdən biri kimi nəzərdən keçirirlər. Bu gün böhrandan çıxmaq istiqamətində Azərbaycan hökumətinin apardığı iqtisadi islahatlar artıq Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən rəsmi şəkildə dəstəklənir. Lakin bank sektorundakı vəziyyət heç də ürəkaçan deyil. Banklarımızın xarici valyutada olan kreditlər və və xarici valyutada olan əmanətlər məngənəsində sıxılması və bu səbəbdən onların sağlamlaşdırılması sahəsində yaranmış problemlər bütövlükdə bank sektoru haqqında müsbət heç nə deməyə əsas vermir. Beynəlxalq reytinq təşkilatlarının qiymətləndirmə zamanı məhz bu məsələni diqqət önünə çəkmələri şübhəsizdir".

**Ekspertin sözlərinə görə, iqtisadi islahatlarla bağlı və yaranmış böhran şəraitində bütövlükdə iqtisadiyyatın durumu ilə bağlı ciddi problemlər yoxdur:** "Ciddi ola biləcək bir tək problem bank sektoru ilə bağlıdır. Ona görə də bank sektorunun işinin ən qısa zaman kəsiyində kökündən yenidən qurulması qaçılmazdır. Bank sistemində yaranmış bu vəziyyətin bir əsas səbəbi də onların nizamnamə kapitalını 10 milyon manatdan 50 milyon manata qədər artırdıqları zaman yol verdikləri formallıqlardır".

**F.Yusifov qeyd edib ki, Azərbaycanın kredit reytinqinin aşağı salınmasının kredit götürülməsi işində hər hansı bir ciddi əngəllər yaradacağına isə inanmır:** "Eyni qayda ilə bu qiymətləndirmədən sonra kimlərinsə bizi mövcud borclarımızı ödəməkdə tələsdirə biləcəyi də reallıqdan çox uzaq bir məsələdir. Hər bir borc müvafiq müqavilə əsasında verilir və hər bir müqavilədə də borcun ödənilməsi şərtləri öz əksini tapır".

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, bu artıq ikinci böyük reytinq təşkilatının verdiyi qərardır:** "Tezliklə daha bir reytinq agentliyi buna bənzər hesabat açıqlayacaq. Bu, o deməkdir ki, Azərbaycan yatırım üçün çox əlverişsiz bir ölkə səviyyəsinə gəldi. Bu çox ciddi məsələdir. Onsuz da Azərbaycanda yatırımla bağlı ciddi problemlər var idi. Bu qərardan sonra vəziyyət daha da problemli hala gələcək. Həm də ölkənin özü üçün də ciddi problemdir ki, gələcəkdə ölkə beynəlxalq strukturlardan maliyyə qaynaqları cəlb etmək istəsə, kredit cəlb etmək istəsə, ən yaxşı halda, çox ağır şərtlərlə buna nail ola bilər. Bir çox hallarda imtina olacaq. Amma imtina olmasa belə, ölkə çox ağır şərtlərlə, çox yüksək faizlərlə kreditləri cəlb etmək məcburiyyətində qalacaq".

Qeyd edək ki, Azərbaycanın yeni reytinq dərəcəsi- "BB+" səviyyəsi "spekulyativ" və ya "zibil" səviyyə hesab olunur. Bu səviyyə sərmayə yatırımı üçün çəkindirici sayılır. Əksər ekspertlər Azərbaycanın kredit reytinqinin "zibil" səviyyəyə endirilməsinin borclanmada ciddi əngəl yaradacağını vurğulayırlar.

❑ **RÖYA**

# Yol hərəkəti ilə bağlı cərimə tətbiqi qaydaları və məbləğləri dəyişdi

## Sürücülər üçün 80 manat və 4 ballıq qayda pozuntusu müddəası ləğv edildi



**Martın 1-dən yeni İnzibati Xətalar Məcəlləsi qüvvəyə minir. Yeni Məcəllədə maraqlı məqamlar var. Həmin yeniliklər bu gündən təcrübədə tətbiq olunacaq. Avtosfer.az bildirir ki, sürücülərin nəzərə almalı olduğu əsas yeniliklər bunlardır:**

**1.** Təhlükəsizlik kəmərini bağlamadan avtomobili idarə etməyə görə elektron protokollar tərtib olunacaq.

**2.** Motosiklet sürücüləri isə həm dəbilqəsiz motosiklet sürməyə görə, həm də dəbilqəsiz sərnişin daşımaya görə elektron protokollar alacaqlar.

**3.** Yeni Məcəllədə inzibati məsuliyyətə cəlbetmə müddəti birmənalı olaraq bir ildir. Daha iki ay söhbəti olmayacaq.

**4.** Yol-nəqliyyat hadisəsi yerindən yayınmaya görə yalnız hadisədə təqsirli sürücü (sürücülər), özü də əvvəlki kimi 80 manat yox, 100 manat cərimə olunacaq.

**5.** Sürücünün avtomobilin idarə edilməsindən kənarlaşdırılması və daha sonra avtomobilin cərimə meydançasına aparılması üçün nəzərdə tutulan hallar olduqda DYP əməkdaşının daha yerində üç saat gözləməsi söhbəti olmayacaq. Müvafiq əsas varsa, avtomobil sənədləşmədən sonra dərhal duracağa aparılacaq.

**5.** Avtomatik rejimdə tərtib olunan elektron protokol qayda pozuntusundan sonrakı bir ay ərzində "ASAN ödəniş" sisteminə və orada sürücünün özü üçün yaratdığı elektron kabinetə yerləşdiriləcək, sürücü buna görə məsuliyyətdən azad olunacaq. Bu hüquqdan istifadə etmək üçün hər bir sürücü asanpay.az saytında özü üçün elektron kabinet yaratmalıdır.

**6.** Nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə etməyə görə ilk dəfə 300 manat yox, 400 manat cərimə tətbiq olunacaq.

**7.** İcbari sığortası olmayan nəqliyyat vasitələrinə də elektron protokol - MMX tərtib olunacaq.

Yeni Məcəllədə sürücülərin məsuliyyətə cəlb edildiyi xətalar sırasından "qəza şəraitinin yaradılması" çıxarılıb. Belə ki, hazırda qüvvədə olan və sabah qüvvədən düşəcək məcəllənin 151.3-cü maddəsində "qəza şəraitinin yaradılması" adlanan inzibati xəta var. Onun hüquqi anlayışı belədir: qəza şəraitinin yaradılması, yəni hərəkətin başqa iştirakçılarının sürəti və hərəkətin istiqamətini məcburi dəyişməsinə səbəb olan pozuntular törədilməsi. Bu xətaya görə 80 manat cərimə və 4 cərimə balı nəzərdə tutulur. Yeni Məcəllənin 327.3-cü maddəsində və digər normalarında "qəza şəraitinin yaradılması" adlı xəta təsbit edilməyib. Bu, o deməkdir ki, həmin xəta ləğv edilib.

Yeni Məcəllənin layihəsinin müəllifləri də həmin xətanın ləğvi zərurətini müəyyən edərək onu məcəllədən çıxarıblar. Yeni məcəllə qüvvəyə mindikdən sonra yolda hərəkət vaxtı konkret hərəkət iştirakçısına mane olan sürücünün törətdiyi qayda pozuntusu etdiyi manevrə uyğun hüquqi qiymət alacaq. Məsələn, yolayrıcını keçərkən üstünlüyə malik nəqliyyat vasitəsinə yol verilmədikdə yolayrıcını keçmə qaydalarını pozma (60 manat cərimə və 3 cərimə balı), eyni istiqamətli zolaqlarda yerdəyişmə zamanı üstünlüyə malik nəqliyyat vasitəsinə mane olma isə əks istiqamətli hərəkət zolaqlarına çıxmadan manevr etmə qaydalarını pozma (40 manat cərimə) kimi qiymətləndiriləcək.

YENİ MÜSAVAT
N 48 (6369) 1 mart 2016





# Kasıb Şahdağa çıxdı...

## Dağın başında ekstrim, xizək sürməyə çalışan azərbaycanlılar və pendir-çörək səfası...



**"Olarmı tur biletini elə yola düşən vaxt alaq? İndi şəhərin bir başından o biri başına sırf bilet almaq üçün gəlmək mənə uyğun deyil. İki saatım gedəcək... İş günüdür axı..."**

### Səhər yeməyi, diskoteka, fotosessiya - gedək qartopu oynamağa!

Həftə sonunu Şahdağda keçirmək istəyən sıravi azərbaycanlının qarşılaşdığı ilk əngəl bu olur. Bəli, sayı gün-gündən artan turizm firmaları birgünlük Şahdağ turlarını təşkil edərkən turistlə təşkilatçı arasında "yüngülvari qanqaraçılıq" sözügedən mərhələdə yaşanır. İnternet bu cür elanlarla doludur, məlum: Xizək geyimində iki nəfər, fonda bəmbəyaz qar və cəmi 17 AZN-ə bir günlük tur... Biz bu seçimlərin arasında "YES Travel" turizm şirkətinin təklif etdiyi turu seçdik.

Elan da təxminən belə idi: "Qiymətləri sizin üçün endirdik. Şahdağ cəmi 17 AZN!

10 nəfərdən çox olan qruplar üçün 1 nəfər pulsuz

Qruplar və kollektivlər üçün xüsusi qiymətlər

Qiymət cəmi 17 AZN

qiymətə daxildir:

VİP komfortlu avtobusla gediş - dönüş

Səhər yeməyi

Xizəklərin vaxtından əvvəl bron edilməsi

Tur rəhbəri X fotoçəkiliş

Çay süfrəsi

Canlı musiqi

Diskoteka

Yolboyu əyləncəli oyunlar

Qaliblərə hədiyyələr".

Bəndlərə baxırsan, qiymətə baxırsan, həvəslənirsən. Zəng edəndə isə ilk əngəl yazının girişində yazdığımız kimi yaşanır. Administrator deyir ki, telefonla "gələcəm" deyib, yer bron etmək olmaz. Çünki çox adam verdiyi vədə xilaf çıxır, səfər günü isə sadəcə, telefonunu qapatmaqla vəziyyətdən çıxır: "Hər adam "gələcəm" deyib, sonra gəlməsə, biz nə vəziyyətə düşərik, təsəvvür edirsiz?"

### Dəyişən görüş yeri, 1 saat gecikən səfər...

Arqumentlə razılaşırıq, amma bu arada firma potensial müştərisinə bir güzəşt edir. İş yerimizin ünvanını dəqiqləşdirir, bir gün öncədən metronun qarşısına bilet gətirəcəyini vəd edir. Hətta vədlərinə də sadiq qalırlar, danışdığımız vaxtdan yarım saat gec də olsa, biletlərimizi gətirirlər. Beləcə, məsələ həll edilir - sülh və əmin-amanlıq üsulu ilə.

Amma sevinməyə dəyməz. Çünki elanda görüş yeri səhər saat 06.30-da Tofiq Bəhramov adına stadionun qarşısı göstərilsə də, səfərdən bir gün öncə, axşam saatlarında telefonuma mesaj gəlir: Sabah saat 06.30-da "Nərimanov" metrosunun qarşısında olarsınız. Mesajı alar-almaz firmaya zəng edirəm: "Yeri niyə dəyişdiz? Biz planımızı başqa cür qurmuşduq axı..." Firma nümayəndəsi deyir ki, T.Bəhramov adına stadionun qarşısı həmin saatlarda basabas olur, bütün firmalar oradan çıxdığı üçün qarışıqlıq yaranmasın deyə yeri bir stansiya "sürüşdürüblər". Narazı qaldığımı görüb, vəziyyətdən yumor yolu ilə çıxmağa çalışır: "Səhər hava yuxunuzu qaçırsın deyə, bir stansiya bu tərəfə gələrsiz. Cəmi 5 dəqiqəlik məsafədir, narahat olmayın"...

Narahat olmuruq, təbii. Jurnalistin canı "ÇP"lərdədir. Nə qədər çox problem, bir o qədər təfsilatlı, maraqlı material... Beləcə, vədələşdirilən saatda, məkanda yığışırıq. İnsafən, camaatımızda dəqiqlik anlayışı var. Biz 7-nin yarısında avtobusun qarşısındayıq, bizdən əvvəl gələnlər də var. Amma yenə də gözləyirik: üç nəfər qalıb... ikicə adam... aha, biri də gəlsə, gedirik... vədlərinin altında saat 07.25-ə qədər gözləyirik. Yəni qeyd olunan vaxtdan 1 saat sonra "hadisə yerindən" uzaqlaşırıq. Yolumuz Qusara - Şahdağadır.





**Əməkdaşımız bir günlük Şahdağ turunda nələr gördü, nələr yaşadı...**

### Tur pulunu avtobusda da ödəyənlər var

Amma yolboyu diqqətimi ilk çəkən cəhət bir çoxlarının bilet pulunu elə avtobusdaca ödəməsi olur. Bunun səbəbini soruşuram, bələdçi deyir ki, onlar ancaq etibarlı müştərilərə bu güzəşti edirlər. Necə deyərlər, gərək adamın adamı ola...

Avtobusun içərisinə baxıram, 54 nəfər... 17 manatlıq tur şirkətə nə az, nə çox 918 manat dövriyyə gətirir. Bunun nə qədəri digər xərclərə hesablanır, bunu səfər boyu müəyyənləşdirəcəyik. Amma turun detallarından biri - 5 yaşına qədər uşaqlar pulsuzdur - yerindəcə pozulur. Yaşı 7-8-i ötən uşaqlar belə turda analarının qucağında, ya da yerdə oturmaqla iştirak edirlər. Tur rəhbərləri də bunun fərqindədir, amma "hamımız azərbaycanlı döyülükmü", prinsipi ilə yola verirlər. Heyət isə özlüyündə rəngarəngdir. Əsasən orta yaşlı xanımlar öz uşaqları ilə qatılıblar, üstəgəl, gənclərdən ibarət kiçik qruplar da var. Yetərincə şən, hazırcavab, komplekssiz... yol yoldaşları. Bir də bizim kimi "partizan heyət" - mən və foto, videoreportyorumuz Aytən Abbaslı səsimizi belə çıxarmadan, jurnalist olduğumuzu bildirmədən olanları bloknota, foto, videoaparatın yaddaşına köçürürük.

Öncə "Beşbarmaq" deyilən ərazidə beş-on dəqiqəlik fasilə veririk, siqaret çəkən çəkir, nəfəs alan alır.. Mənzilbaşına çatana qədər vəd edilən "yolboyu əyləncəli oyunlar" bəndinə isə yerindəcə əməl olunur. Bələdçi gedənə qədər "paytaxt yarışı" keçirir. Ondan öncə isə tur iştirakçıları dörd qrupa bölünür. Hər qrup özünə ad seçir. Bizim bəxtimizə "Mafiya" qrupunda təmsil olunmaq düşür. Buna da şükür. Digər qrup "Uçan xolodelnik", digəri "Şahdağ".... Qrup iştirakçıları bir-bir paytaxtları tapır, ən çox bal alan şəhərlərin siyahısına əsasən, iştirakçılar şəhərləri tapır... Nəticə... ən çox xalı bizim "Mafiya" yığır, səfərin girişindəcə qalib olmaq boynumuza biçilir. Elanda "qaliblərə hədiyyə" bəndi olsa da, hər hansı hədiyyə qazanmırıq. Gurultulu alqışlardan savayı...

### Klassik səhər yeməyi - doyan da var, doymayan da...

Bu da vəd edilən səhər yeməyi. Qusarın girişində bir şadlıq sarayında təşkil edilmiş səhər yeməyinə bizim heyətlə yanaşı, digər turların iştirakçıları da qatılır. Süfrəyə isə klassik Azərbaycan səhər yeməyinin atributları düzülüb: soyutma yumurta, yağ-bal, qaymaq, pendir, çay, çörək, lavaş... Prinsipcə, iştirakçılar razıdırlar, uşaqlar da yeyir, böyüklər də. Amma arabir böyüklərin narazılığı da eşidilir: "Bununla doymaqmı olar? Kaş ki, bir az da yavanlıq olardı..." Amma menyudan artığına iddia etmək olmaz. Odur ki, yola davam...

15 dəqiqədən sonra artıq "Şahdağ"dayıq. Hava yetərincə istidir, ətrafda qısaqol köynəkdə var-gəl edən əcnəbiləri görəndə isə qış əhvalı tamam korlanır. Avtobusdan düşən kimi bələdçimiz elan edir ki, bir də geri qayıtmaq üçün onlarla saat 4-də, avtobusun yanında görüşəcəyik. Çünki ondan sonra da çay süfrəsi və diskoteka mərhələsi var. Və elə burdaca məlum olur ki, tur iştirakçılarına əvvəlcədən elan edilən "Şahdağa giriş" xidməti blefdir. Belə ki, firma bunu turistlərə pulsuz xidmət kimi təklif etsə də, əslində Şahdağ Turizm Mərkəzinə vətəndaşların girişi pulsuzdur. Girişdə turistlərdən hər hansı məbləğ tələb olunmur. Amma kompleksin ərazisinə maşınla gələnlər parkinq üçün müvafiq məbləğ ödəyir. İlk iki saat üçün 3 manat, növbəti hər saat üçün 1 manat. Bizim sürücü isə avtobusu parkinq ərazisində saxlamadığı üçün.... avtomatik bu xərcdən də xilas olur.

Bələdçi elan edir ki, turda yer alan "fotosessiya xidməti"ndən də yararlanmaq olar. Yanındakı fotoqrafı göstərir: "Ona istənilən vaxt müraciət edin, şəklinizi çəksin". Öyrənirik ki, fotoları da sonradan firmaya gəlib, əldə etmək olar. Təbii ki, pulsuz. Amma elə bu qeydi eşidənlərin çoxu "kimdir bir də firmaya gedib şəkil götürən. Elə özümüz telefonla çəkə bilmirik?" deyib, özlərini verirlər kompleksin ərazisinə.

### Kanat demə, ekstrimdir, ekstrim...

Saat 11-dən 4-ə qədər vaxtı olan turist ərazidə nə edə bilər? Kanata minər, xizəkdə sürüşər, yemək yeyər, çay içər, qış günəşi qəbul edər. Qış günəşindən başqa qalan bütün xidmətlər pulludur. Məsələn, ən ucuz kanat 5 AZN məbləğindədir, bu, xizəksiz kanata minənlər üçün nəzərdə tutulub. Cəmi bir gediş-dönüş... Çıxırsan yuxarı *(cəmi bir dayanacaqdır)*, istədiyin müddətdən sonra kanatla qayıdırsan aşağı.

Amma xizəkli kanat üçün 15 AZN ödəmək lazımdır. Xizək dəstinin qiymətləri də fərqlidir. Xizək dəstinin bir günlük kirayəsi 20 AZN-dir. Dəstə xizək+ayaqqabı+xizək çubuğu daxildir.

Amma kompleksin ərazisində fəaliyyət göstərən mağazalardan bunları satın almaq da mümkün idi. Adi bir nümunə: ayaqqabının qiyməti 120 AZN-dən başlayır. Mağazalarda müştərinin az olması da qiymətin bahalığından xəbər verir.

Şahdağda kanata minmək isə əsl ekstrimdir. Məsələn, Tufandağdakından fərqli olaraq, burda kabin kanatlar deyil. Şəkildən də göründüyü kimi, üstü istənilən vaxt açıla bilən, adrenalin yüksəldən kanatlardan danışırıq. Uşaqlar daha az minir, çünki qorxurlar. Kanata minib yuxarı çıxırıq, kafenin qarşısında əylənən turistlər çıxır qarşımıza. Biri uşaq, biri böyük... şıdırğı rəqs edirlər. Aytən çəkir, onlar daha da həvəslənirlər, ətrafdakılar əl çalır....

### Evdən gətirilən kotlet-çörək, ya 22 manatlıq menyu?

Birgünlük turla kompleksə gələnlər restoran və hotel xidmətindən demək olar ki, yararlanmırlar. Yemək məsələsini çox adam evdən gətirdiyi azuqələr hesabına həll edir. Termosda çay, çörək arası kotlet, kolbasa, şirniyyat... Açıq havada qoyulmuş masalarda rahat nahar etmək mümkündür, heç kim turistə "bura bizim ərazidir, sifariş verməsəz otura bilməzsiz", demir.

Amma işini ehtiyatsız quranlar yemək ehtiyacını ödəmək üçün restoranlara da baş vurur. Restoranlardakı menyuya diqqət edək: Menyular həm böyüklər, həm də kiçiklər üçün nəzərdə tutulub. Böyüklər üçün bu, 22 AZN, kiçiklər üçünsə 15 AZN-dir. Böyüklərin menyusuna şorba, salat, əsas yemək, şirniyyat, çay və qəhvə daxildir. Kiçiklərin menyusuna isə salat, əsas yemək, şirniyyat, qazlı və ya qazsız su daxildir. İçki menyusunda da qiymətlər fərqlidir: sadə su 2 AZN, meyvə şirələri 3 AZN, kola 3 AZN və s...

Daha çox xaricilər üçün nəzərdə tutulmuş və hətta menyusu da ingilis dilində olan restoranlarda isə qiymətlər daha baha idi. Məsələn, səhər yeməyi 10 AZN, pendirli tost 3 AZN, salatlar - 10-12 AZN, sendviçlər 11 AZN, hot doq 7 AZN...

Amma kompleksə gələn turistləri daha çox çay qiymətləri narahat edirdi. Bir stəkan çay 2.50 AZN... Üstəgəl, kağız qabda...

### Həvəskar xizəkçilərin sonu... xərəkdə, tibb məntəqəsində

Kompleksin ərazisində turistlər daha çox gözə dəyir. Böyük ehtimalla, çoxu Azərbaycanda çalışan əcnəbilərdir. Balaca uşaqları da özləri kimi xizək sürürlər. Havanın normadan artıq isti olması isə çoxlarını üst geyimsiz, bəzilərini isə hətta qısaqol köynəkdə gəzməyə vadar edib. Yerdə qar (süni də olsa), ətrafda qartopu oynayanlar və qısaqol köynəkdə qış günəşi qəbul edən Tom, Cefri, Anna... Rəngarəng mənzərədir.

O da nə? Kompleksin ərazisində fəaliyyət göstərən tibb məntəqəsinin həkim briqadası xərəkdə birini daşıyır. Xizək sürə bilmədiyi halda buna cəhd edən, nəticədə isə qolunu zədələyən turist. Yaxınlaşıb baxıram, bizim tur yoldaşımızdır. Qolunu sarıyırlar, bir az istirahət edir... vəziyyət faciəvi deyil. Qardaş dostlarının yanında bir az pərtlik yaşayıb, o qədər...

Fürsətdən istifadə edib, hoteldəki qiymətlərlə maraqlanıram. Məlum olur ki, 2 nəfərlik otaqda 2 nəfərin qalması 150 AZN, 1 nəfərlik otaqda isə 129 AZN məbləğindədir.

Saat 16 radələrini göstərir. Alman dəqiqliyi ilə yenə təyin edilmiş yerdəyik. Yenə 40-45 dəqiqəlik gözləmə və yola düşürük. Səhər yeməyi yediyimiz məkandayıq yenə. Bu dəfə çay süfrəsi və diskoteka üçün. Çay içən içir, rəqs edən edir... Əylənirlər, gülürlər, şəkil çəkdirirlər... Və yenə avtobusa minib, yola düşürük. Yolda isə daha bir oyun təşkil olunur. Hər kəs dəyərli hesab etdiyi bir əşyasını bələdçiyə verir. Sonradan bələdçi onu geri qaytarmaq üçün "məharətini göstər" deyib, tələb qoyur. Biri oxuyur, o biri oynayır, bir başqası yanıltmac deyir... Hər hansı özəl bacarığı olmayanlar isə bir ayaq üstə hoppanmaq, əl çalmaq, arzu-istəklərini deməklə vəziyyətdən çıxırlar.

Beləcə, yol tamamlanır, yenə "Nərimanov" metrosunun qarşısındayıq. Bununla da kasıbın bir günlük gəzintisi yekunlaşır. Kiminin gözü doyur, qarnı doymur... Kimi üçünsə elə bu kasıbyana gəzinti də dünya turuna bərabərdir. Hər nə qədər qarımız süni, havamız may havası olsa da, əsas məsələ əhvaldadır. Əhval yaxşı olandan sonra problemlər bir anda sıfırlanır...

**❑ Sevinc TELMANQIZI**
**Fotolar Aytən ABBASLInındır**

YENİ MÜSAVAT
N 48 (6369) 1 mart 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Moskvanın Ermənistanı silahlandırması bölgəyə fəlakət vəd edir



**Rusiya hakimiyyətinin Ermənistana müasir silahların alınması üçün 200 milyon dollar güzəştli kredit ayırması şimal qonşumuzun Qarabağ məsələsinin həlli prosesində nə dərəcədə "ədalətli" olduğunu növbəti dəfə ortaya qoydu. Ermənistan prezidentinin mətbuat xidməti bu silahların elə Rusiyadan alınacağını açıqlayıb. İşğalçı Ermənistana silah almaq üçün kreditin ayrılmasına dair saziş isə Rusiya-Ermənistan hökumətlərarası komissiyasının iyunun 26-da İrəvanda keçirilən iclasında imzalanıb.**

"Bu kredit erməni silahlı qüvvələrinin arsenalındakı müasir silahların və hərbi texnikanın assortimentini xeyli ölçüdə genişləndirəcək", - deyə Sərkisyanın mətbuat xidmətinin açıqlamasında bildirilir.

Rəsmi Bakının Rusiyaya etiraz notasına cavabında Moskvadan verilən reaksiya da təəccüblüdür. Rusiya bəyan edir ki, Azərbaycana da silah satmağa hazırdır. Düzdür, Rusiya daha çox böhranlı vəziyyətdə silah bazarından böyük gəlirlər əldə etmək istəyir və bundan əvvəl Azərbaycanla da 4 milyardlıq silah ticarəti olub. Hətta bu fakt İrəvanda etirazlara səbəb olmuşdu.

İlk baxışdan belə görünə bilər ki, Moskva Ermənistanı sakitləşdirmək üçün ona "kreditlə" silah verir. Ancaq istənilən halda Rusiyanın mövqeyi qəbulolunmazdır. Çünki Ermənistan təcavüzkar dövlət olduğu üçün əslində sanksiyalara məruz qalmalı, ona silah satışı dayandırılmalıdır. Moskvanın İrəvanı müasir silahlarla təmin etməsi isə işğalçılığı stimullaşdırmasından başqa bir şey deyil.

Bu fakt beynəlxalq çevrələrdə də həssaslıqla qarşılanıb. Hətta hesab olunur ki, Rusiya Qarabağ bölgəsində ermənilərin əli ilə savaşı qızışdırmaq, Cənubi Qafqazda öz maraqlarını təmin etmək üçün planlarını reallaşdırmaq istəyir. Ermənistana daşınan silahların paralel olaraq Türkiyəyə qarşı tuşlanacağını proqnozlaşdıranlar da var.

Son zamanlar Qars müqaviləsinin ləğvi ilə bağlı təşəbbüslərin səslənməsinin fonunda ermənilərin silahlandırılması təsadüfi sayıla bilməz. Bu arada Rusiya mətbuatı ermənilərin Naxçıvana hücumu barədə yazıb. (ANS) "Moskovskiy Komsomolets" saytı daxil olmaqla, bir sıra Rusiya KİV-ləri "Ermənistan Azərbaycanla müharibəyə başladı", "Ermənistan döyüşlər zamanı Azərbaycana soxuldu, qanlı döyüşlər gedir", "Ermənistan elan olunmamış müharibəyə başladı" başlıqlı məqalələr dərc edib. Həmin xəbərlər "Azərbaycan mətbuatına istinadən" verilib. Bildirilir ki, Culfa rayonunun Ləkətağ kəndinin sakini Aynur Sərkərovun verdiyi məlumata görə, ermənilər Naxçıvana giriblər və Azərbaycan tərəfdən itkilər var. Hətta həmin yazılarda qeyd olunur ki, guya Azərbaycan Müdafiə Nazirliyi Naxçıvanda yaranmış vəziyyətlə bağlı heç bir məlumat vermir. Ümumiyyətlə, telefon zənglərinə cavab vermir. Ancaq Azərbaycanın Müdafiə Nazirliyi yayılan məlumatların şayiə olduğunu bildirib. Görünən budur ki, Rusiya ən müxtəlif cəbhələrdən Azərbaycana həmlə etməkdədir, burada Ermənistanın silahlandırılmasından tutmuş, təbliğat müharibəsinə qədər bir sıra məsələlər yer alır.

**Politoloq Elxan Şahinoğlu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Rusiyaya nota verməsini, Moskvanın Ermənistana silah və hərbi texnikanın alınması üçün 200 milyon dollar kredit verməsindən dolayı narahatlığını təbii saydı**: "Əlbəttə, istənilən ölkəyə silah satması və ya bu məqsədlə kredit ayırması Rusiyanın hüququdur. Ancaq Kreml hər yerdə beynəlxalq hüququn aliliyindən və Suriyanın ərazi bütövlüyünə hörmətdən danışır. Buna görə də Kreml Suriya kimi Azərbaycanın ərazi bütövlüyünə da hörmət etməlidir. Rusiya Ermənistana silah verə bilər, ancaq üzərinə təminat götürməlidir ki, bu silahlar Azərbaycanın işğal altındakı torpaqlarında yerləşdirilməyəcək. Elə Azərbaycan XİN-in Moskvaya ünvanladığı nota da məhz bu sözlərlə bitirdi ki, Rusiya 200 milyon dollarlıq silah və texnikanı işğal altındakı ərazilərdə yerləşdirməyəcəyinə dair zəmanət verməlidir".

**E.Şahinoğlu əmindir ki, Kreml Bakıya belə bir zəmanət verməyəcək:** "Çünki Rusiya həmin silah və texnikanı kasıb Ermənistana məhz ona görə verir ki, separatçılar Azərbaycan qarşısında hərbi nöqteyi-nəzərdən zəifləməsinlər. Azərbaycanın hərbi imkanları və hərbi büdcəsi ilbəil artır. Ermənistanın isə belə imkanları yoxdur. Ona görə də Rusiya Ermənistana köməyini artırır. Rusiya XİN-in sözçüsü Mariya Zaxarova mətbuat konfransında bu mövzuda suala cavab verərkən dedi ki, Moskva Cənubi Qafqazda balansı saxlamaq üçün həm Azərbaycana, həm də Ermənistana silah satır. Əslində bu, belə deyil. Rusiya Azərbaycana silah satır və pul qazanır, Ermənistana isə silahı pulsuz verir və bundan qazancı olmur".

**Politoloq deyir ki, Rusiya hakimiyyətinin siyasətini proqnozlaşdırmaq mümkün deyil:** "3 il öncə Ukraynanı "qardaş ölkə" adlandırırdılar, indi isə bu ölkəni faktiki parçalayıblar. Və ya bir il öncəyə qədər Türkiyə ilə strateji tərəfdaş idilər, indi isə Türkiyə ilə mümkün müharibədən danışırlar. Ona görə də bunları görən Baltikyanı ölkələr öz təhlükəsizlikləri üçün həyəcan təbili çalırlar. Rusiyada hakimiyyət dairələri Azərbaycanı tərəfdaş ölkə adlandırsalar da, münasibətlərimizin gələcəyi haqqında konkret fikir söyləmək çətindir. Misal üçün, kənd təsərrüfatındakı əməkdaşlığı göstərə bilərik. Azərbaycan hakimiyyəti Rusiya bazarına ümidlidir. Ancaq Rusiya sanitar xidməti tez-tez Azərbaycanın kənd təsərrüfatı məhsullarının hansısa normalara uyğun olmadığını açıqlayır. Üstəgəl, Rusiya tərəfi şübhələnib ki, Azərbaycandan Rusiyaya pomidor tomatının ixracının 5 dəfə artması təsadüfi deyil, guya Türkiyə Azərbaycan üzərindən Rusiyaya məhsul ötürür. Azərbaycan tərəfi bu iddiaların əsassız olduğunu bildirsə də, Rusiya buna reaksiya vermir. Bu hadisənin ardınca, keçən həftə Azərbaycandan Rusiya üzərindən tranzitlə İtaliyaya göndərilən 22 ton fındıq saxlanılıb. Halbuki bu fındıq Rusiya bazarında satılmayacaqdı. Bununla da Rusiya tədricən 1990-cı illərin siyasətinə qayıdır, yenə də Azərbaycana qarşı qeyri-rəsmi embarqo həyata keçirir. Ona görə də nə qədər Rusiya ilə normal qonşuluq münasibətlərinin davamına çalışsaq da, mümkün təhlükələrdən də özümüzü sığortalamalı, müttəfiq dövlətlərlə siyasi və hərbi əlaqələrimizi inkişaf etdirməliyik".





**Elxan Şahinoğlu:** "Kreml Suriya kimi Azərbaycanın ərazi bütövlüyünə da hörmət etməlidir"
**Üzeyir Cəfərov:** "Rusiya o silah-sursatı "konsert" vermək üçün bölgəyə daşımır"

**Hərbi ekspert Üzeyir Cəfərov da şimal qonşumuzla bağlı narahatlığını bölüşdü:** "Rusiya yenə bizim başıbəlalı bölgəmizə çox böyük fəlakət gətirə biləcək silah-sursatı, ağır hərbi texnikanı yorulmadan daşımaqdadır. Silahların bir hissəsi Moskvadan birbaşa, digər hissəsi isə Cənub Federal Hərbi Dairəsinin bazalarından həm Gümrüdəki 102-ci bazaya, həm də Ermənistan Silahlı Qüvvələri üçün artıq gətirilməyə başlayıb. Nəzərə almalıyıq ki, budəfəki silah-sursatın içində təkcə yeni avtomat və pulemyot deyil, daha müasir və yeni nəsil təyyarə və raket sistemləri də var. Bu isə təkcə Azərbaycana və qardaş Türkiyəyə deyil, eyni zamanda bizə dost və yaxın qonşu olan Gürcüstana da gələcəkdə çox ciddi problem yarada biləcək addımdır. Bu azmış kimi, Rusiyanın Ermənistana 200 milyon dollar məbləğində silah-sursat satdığı məlum olub. Bəzi mənbələr bu müqavilənin formal olduğu, reallıqda Rusiyanın Ermənistana daha çox - 1 milyard dollar məbləğində silah verdiyini iddia edir. Şəxsən mən bunu aysberqin yalnız görünən hissəsi kimi qəbul etməyin tərəfdarıyam. Yəqin ki, reallıqda bu rəqəm daha böyük və daha dəhşətlidir".

**Ü.Cəfərov Rusiyanın Bakının notasına verdiyi cavabı "formal və məntiqdənkənar" adlandırdı:** "Faktiki onlar başa düşürlər ki, artıq onların qeyri-səmimi hərəkət və davranışlarını bütün dünya aydın görür. Belə davam edə bilməz. Bu, necə sülhyaratma missiyasıdır ki, sən işğalçıya ən müasir silah-sursatı verirsən və ona deyirsən ki, narahat olma, mən sənin yanında və arxandayam? Digər tərəfdən, mən öz günahımızı da xüsusi olaraq qeyd etmək istərdim. 1994-cü ildə Rusiya Ermənistana 1 milyard dollarlıq qeyri-qanuni silah-sursat verəndə Dövlət Dumasında general-leytenant Lev Roxlinin sədrliyi ilə bir komissiya yaradıldı və guya onlar bu məsələni araşdıracaqdılar. Sonda nə oldu? Biz prinsipiallıq göstərmədik, məsələnin sona kimi araşdırılmasına nail olmadıq, o silahlar bizim onlarla hərbi qulluqçumuzu və mülki vətəndaşımızı qətlə yetirdi, yaraladı və ən sonda bu işin araşdırıcısı Lev Roxlini ermənilər rusların öz əli ilə güllələyərək öldürdülər. Adını da qoydular ki, guya generalı həyat yoldaşı öldürüb. Biz nə qədər prinsipial olmayacağıq və öz haqqımızı sona qədər qorumayacağıq, başımıza minbir bəla, fəlakətlər gələcək. Bunu unutmamağımız gərək. Rusiya o silah-sursatı "konsert" vermək üçün bölgəyə daşımır. Ayıq-sayıq olmaq lazımdır! Təhlükənin miqyası get-gedə genişlənir. Putinin ölkə başçımızla tez-tez telefon və belə təmasları da məndə hiyləgərlik əlamətlərinin olması şübhələrini yaradır. Təki mən yanılım, amma 2016-cı il Cənubi Qafqazın taleyi üçün çox böyük önəm kəsb edən il olacaq. Ona görə də rəsmi Moskva çox tələsik bölgəyə ağır silah-sursat göndərir".

Bu arada məlum olub ki, Rusiyanın Xəzər donanmasının 50-dən çox gəmisi dənizə təlimlərə çıxmağa hazırlaşır. Virtualaz.org bildirir ki, bu barədə RF Cənub Hərbi Dairəsinin mətbuat xidmətinin məlumatında deyilir.

**Məlumata görə, hazırda ekipajlar praktiki işlər - gəmilərin dənizə çıxışı və hərbi əməliyyatlar üzrə tədbir komplekslərinin məşqi və həyata keçirilməsilə məşğuldur:** "Son iki qış mövsümü üzrə təlim ayları (mart və aprel) ərzində hər bir gəmi lazımi hərbi təlim və məşqlər kompleksini həyata keçirəcək. Onların sırasında dəniz, sahil və hava məqsədlər istiqamətində raket və artilleriya təlim atışları da var".

Hər halda, Rusiyanın nəinki Azərbaycana, ümumiyyətlə, bütün dünyaya meydan oxuduğu aydın görünür. Ermənistanın hava məkanını da tam nəzarət altına almasını rəsmiləşdirəndən sonra bu ölkəni sürətlə silahlandırması, Xəzərdəki donanmasını gücləndirməsi şimal qonşumuzun yeni əməliyyat planı üzərində işləməsi təəssüratını yaradır. Krımın işğalını Suriya olayları ilə unutduran Kreml dünyanın diqqətini indi hansı işğal zonası ilə yayındırmaq istəyir? Günün sualı budur...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

# Bu gün Od çərşənbəsidir

## "O gözəllik hələ də xatirələrdədir..."

**Bu gün Boz ayda qeyd edilən ikinci çərşənbə - Od çərşənbəsidir. Buna bəzən xalq arasında üskü (tonqal) və ya ocaq çərşənbəsi də deyirlər. İnanclara görə, insan odu nə qədər əzizləsə, bir o qədər yüngül olar, çətinlikləri azalar.**



Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. İnanclara görə, tonqal yeni həyatın, baharın, istiliyin gəlişinin rəmzidir. Hələ qədim dövrlərdən insanlar odu qoruyub, hörmət ediblər. Qalanan tonqal isə həmişə nəyəsə işarə olub. Adət-ənənəyə görə, bu gün insanlar tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar. Kənd yerlərində bütün kəndi od çərşənbəsinin olması ilə bağlı agah etmək üçün həmişə dağların başında tonqallar qalanarmış. Əgər dağlar olmasa, hündür yerlər seçərək, o hissələrdə tonqalın qalanması daha məqsədəuyğun hesab olunurdu. İnsanlar öz qapılarında, evlərinin qarşısında və məhəllələrində tonqal qalamaq üçün əllərinə taxtadan məşəllər alır, həmin böyük tonqalın yanına gedərək oradan alov götürürdülər. Sonra həmin alovu tonqal qalayacaqları yerə gətirib, alovu yandırırdılar.

Müasir dövrdə də çərşənbə axşamı hər kəs öz həyətində tonqal qalamaqla çərşənbə adət-ənənələrini davam etdirir. Od çərşənbəsi günündə qazanlar qaynamalı, ocaqların üstü boş qalmamalıdır. Bu gün imkan daxilində hər kəsin evində istilik verən yeməklər bişirilməli, süfrə açılmalı, xonça bəzənməli, şamlar yandırılmalıdır. Şam istiliyin, odun, işığın qorunub saxlanması, səadətin rəmzidir. Ona görə də hər kəs Od çərşənbəsini şad, şən və bolluq içində keçirməyə can atır.

**Od çərşənbəsinin sadaladığımız adət-*ənənələri rayonlarda və kəndlərdə öz aktuallığını hələ indiyə kimi qoruyub saxlaya bilib.**

**Hər bölgədə özünəməxsusluğu ilə keçirilən çərşənbələrin Qarabağ bölgəsində necə keçdiyi ilə maraqlandıq. Uşaqlığını və gəncliyini Tərtər rayonunda keçirən keçmiş MTN zabiti, polkovnik İlham İsmayıl Novruz bayramı ilə bağlı xatirələrini bizimlə bölüşərək bildirdi ki, çərşənbələr keçmişdə daha şən və təntənə ilə keçirilirdi:** "Çərşənbələr Qarabağda çox gözəl keçirdi. Hər bir çərşənbənin öz adı vardı və o ada da uyğun hərəkətlər olurdu. Qarabağda Novruz bayramı həyət-bacada təmizlik işlərindən tutmuş, yemək-içməyə qədər özünəməxsusluğu ilə seçilirdi. Uşaq vaxtı çərşənbədə çöldə uzun müddətdən bəri solyarkaya, yəni neftə qoyduğumuz şarları yandırıb göyə atardıq. Həyəti, bağı-bağçanı təmizləyəndə çör-çöpləri yığıb tonqal qalayardıq. Düzdür, bu, zəhmətlə əmələ gəlirdi. Bəzən özümüzə əziyyət vermək istəməyəndə qaçıb heyvanın otundan da götürüb odun üstünə atırdıq ki, od bir az da alovlansın. Valideynlərimiz bunu biləndə bizi danlayırdı ki, heyvanın otundan yandırmaq olmaz. Daha çox həyət-bacanı təmizləyərək əldə etdiyimiz çör-çöpdən tonqal qalayardıq. Bunun da öz gözəlliyi vardı. İndi papaqatdı deyilən adətə bizdə torba sallamaq deyirdilər. Biz yalnız axır çərşənbədə torba sallayardıq. Kimsə papaq atmağa gələndə eyvanda, çöldə olan suyu həmin adama çiləyərdilər. Bir dəfə biz evimizdə plov bişirmişdik. Düyünün həlimini qırağa qoymuşduq. Torba atmağa gələnin biri həmin düyü həlimini su bilib üstümüzə atmışdı. Üstümüz bütövlükdə həlim olmuşdu.

Mən 18 yaşıma qədər Qarabağda yaşamışam. O illər ərzində Qarabağda olan Novruz bayramı ab-havası, bir çox adət-ənənələr inanmıram ki, bu gün Qarabağda davam edər. Vəziyyət hərtərəfli dəyişilib. İndi əyləncə tamam başqa cürdür. Bayram əhval-ruhiyyəsinin olub-olmaması da sual altındadır. Amma o vaxtlar çox gözəl idi. O gözəllik isə hələ də xatirələrdədir. Yaxşı ki, xatirələrimizin üstünü toz basmayıb".

❑ **Günel MANAFLI**

## TƏBRİK



*Ramazan müəllimin 54 yaşı tamam olur. Onu bu münsibətlə Azay bəy, Abbas bəy, Arif bəy, Elçin bəy, Ədalət bəy, Eldar bəy təbrik edirlər. Ramazan müəllim, dostlar ulduzlar kimidir, onları hər vaxt görmək olmur, amma sizin üçün hər zaman var olduqlarını və sizi düşündüklərini bilirsiniz. Ad gününüz mübarək...*

***





*Ömürlük OMON-çu məhbus Arif Kazımovu ad günü münasibətilə doğmaları və yaxın dostları təbrik edir, ona uzun ömür, cansağlığı arzulayır.*

*Tanrı tezliklə qapınızı açsın. Təbrikə ömürlük məhbus Səfa Poladov da qoşulur.*


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**






# "Nar" Novruz kampaniyasına start verdi

## Daha artıq balans, daha çox bonus!

**Novruz kampaniyası çərçivəsində abunəçilər balanslarını nə qədər çox artırsalar, "Nar"dan bir o qədər bonus qazanarlar. Bu bonuslarla bayram günlərində abunəçilər bol ünsiyyət quraraq Novruz sevincini yaxınları ilə paylaşa bilərlər.**

**Ödəniş üsulundan asılı olmayaraq, mart ayının 1-dən 15-dək balansını birdəfəlik 5, 10 və ya 20 AZN məbləğində artıran hər bir abunəçi müvafiq olaraq 100, 200 və ya 300 MB internet trafiki və eləcə də 300, 600 və ya 1000 şəbəkədaxili SMS bonus qazanacaq.**

**Bu bonuslar martın 1-dən 15-dək toplanacaq və Novruz günlərində hər bir kəsə xoş ünsiyyət, bayram ovqatı bəxş etmək üçün abunəçilərə 20-27 mart tarixlərində təqdim olunacaq. Tarifindən asılı olmayaraq, kampaniyadan öncədən ödənişli bütün "Nar" nömrələrinin istifadəçiləri yararlana bilərlər.**

**Kampaniya haqqında daha ətraflı məlumatı mobil operatorun internet səhifəsindən öyrənə bilərsiniz: www.nar.az**


## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**


bakcell

# «Bakcell» yeni internet əyləncə portalını istifadəyə verdi

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti yeni internet əyləncə portalını istifadəyə verdiyini böyük məmnuniyyətlə elan edir. Bu yeni portal "Qoş və Coş" brend adı altında istifadəyə verilmiş ikinci xidmət olacaq.**

**İstifadəyə verilən bu yeni portalın məqsədi onlayn istifadəçiləri müxtəlif xidmətlərlə, o cümlədən qaynar təkliflər, oyunlar, musiqi, xəbərlər və məsləhətlər, EA oyunlar, M-təhsil, «Bakcell» futbol mərkəzi, İVR çat və bir sıra digər xidmətlərlə təchiz etməkdir.**

**Onlayn ziyarətçilər bu yeni internet səhifəsində hava şəraiti haqqında, horoskop, pəhrizlər, sağlamlıq, sevgi və digər mövzulara aid məlumat ala biləcəklər. Bu yeni portal istifadəçilərə lotereya kampaniyaları (Qazandıran SMS, Fantasy Football, Sevincli Anlar) kimi təqdim olunan bir çox xidmətlərdən tam yararlanmaq imkanı verəcək. İstifadəçilər bu portaldan bir kliklə yükləmələr də edə biləcəklər.**

**Xəbərlər haqqında bildirişlər almaq üçün istifadəçilər portalda öz telefon nömrələrini və SMS vasitəsilə aldıqları təsdiq PİN kodunu daxil edərək portala abunə yazılmalıdırlar. Hər bir xidmət üçün abunə haqları və şərtləri barədə ətraflı məlumat müvafiq təkliflərin qarşısında təqdim edilib.**

**Portal haqqında daha ətraflı məlumat almaq üçün http://eylence.«Bakcell».com/a ttp://eylence.«Bakcell».com/a internet səhifəsinə daxil olmağınız xahiş olunur.**


## Elan

**Təcili Hacıqabulda hər bir şəraiti olan- daimi suyu, işıgı, 3 yaşayış evi, böyük tövləlri, yem anbarı, 3 ha meyvə bagı olan ferma, ərazisi 0.5 ha olan yol kənarında yerləşən fermaya bitişik restoranla birgə satılır.**

**Sənədlər qaydasindadır. Qiyməti 150.000 $.**

**Əlaqə nömrəsi : 050-214-40-53**

***

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**

**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**


## Başsağlığı

**Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətinin sədri N.Cəfəroğlu və kollektivi İsgəndər Həmidova qardaşı Sərdar Həmidovun vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 48 (6369) 1 mart 2016

# Rus bölməsi şagirdlərinin daha savadlı olmasının sirri

## Təhsil eksperti: “Azərbaycan dilində yazılmış dərsliklər olduqca mürəkkəbdir və anlaşılmır”



**I-IV qruplar üzrə sonuncu qəbul imtahanlarında iştirak edən abituriyentlərin 40.2%-i (33 min 352 nəfər) imtahan verdikləri fənlərin ən azı birindən sıfır bal toplayıb. Bu barədə mətbuata açıqlamasında Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə deyib. İmtahan fənlərindən sıfır bal toplayan abituriyentlərin Azərbaycan bölməsində çoxluq təşkil etdiyini deyən M.Abbaszadə builki qəbul imtahanlarında rus bölməsi abituriyentlərinin, Azərbaycan tarixi, tarix və coğrafiya fənləri istisna olmaqla, digər bütün fənlər üzrə göstəricilərinin Azərbaycan bölməsi abituriyentlərinin göstəricilərindən yüksək olduğunu bildirib.**

Ümumiyyətlə, rus bölməsi şagirdlərinin həm təhsil, həm də intellekt baxımından Azərbaycan dili bölməsində oxuyan şagirdlərdən üstün olması məsələsi zaman-zaman gündəmə gəlib və bu mövzu ətrafında müəyyən müzakirələr aparılıb. Bir çox ekspertlər bunu rus ədəbiyyatının zənginliyi, anlaşılan dildə olması ilə izah edir. Bir sıra ekspertlər isə bunun səbəbini rus bölməsinin müəllimlərinin daha savadlı olmasında görür. Bir çox psixoloqlar da Azərbaycan bölməsində oxuyan uşaqların daha aqressiv olduğunu və bu gün baş verən əksər cinayətlərin, oğurluq hadisələrinin də məhz Azərbaycan bölməsini bitirən şəxslər tərəfindən törədildiyini bildirirlər. Bunun səbəbini isə Azərbaycan kitablarında, nağıllarında aqressiyanın daha çox olmasında görürlər. Rus bölməsi şagirdlərinin daha mülayim olmasını isə rus ədəbiyyatında həlimliliyin, yumşaqlığın olması, nağılların, hekayələrin daha çox dostluq sevgi üzərinə qurulması ilə əlaqələndirirlər.

Bəs gerçək səbəb nədir? Nəyə görə rus bölməsinin şagirdləri Azərbaycan bölməsinin şagirdlərindən daha savadlı olur?

**Təhsil Şurasının sədri Əjdər Ağayev bunun bir neçə səbəbi olduğunu dedi:** “Bu, pedaqoqları da maraqlandıran çox önəmli məsələdir. Bu məsələni araşdırmaq üçün Təhsil Şurası layihə hazırlayıb nazirliyə verdi ki, araşdırsın görək niyə təlim rus dilində olan məktəblərdə savad da, mədəniyyət də, davranış da yüksək olur. Təhsil Nazirliyinin o layihəyə qiymət verən adamları onu dəyərləndirə bilmədi və buna görə də layihəni qəbul etmədi. Bundan sonra Təhsil Şurası olaraq biz özümüz bu məsələ ilə maraqlandıq. Bunun bir neçə səbəbi var. Birincisi təlim rus dilində olan siniflərə ziyalı ailələrin uşaqları gedir və o ailələrin özündə də mədəniyyət örnəkləri var. Uşaq ailədə o örnəkləri görüb məktəbə gedir. İkincisi, təlim rus dilində olan məktəblərdə dərs deyən müəllimlərin özləri də həmin ailələrdən çıxıb. Bilirsiniz ki, rus bölmələrində dərs deyənlərin və oxuyanların 99 faizi azərbaycanlıdır. Amma bu şagirdlərdə, müəllimlərdə ailədən gəlmə fərqləri, ziyalılıq ünsürləri var. Bu insanlarda rus mədəniyyəti, rus dəqiqliyi ilə əlaqəlilik var. Buna görə də orada uşaqlar rus dili vasitəsilə internetdən və digər resurslardan daha geniş məlumat ala bilirlər. Orada müxtəlif sistemli tədbirlər keçirilir. O tədbirlərdə yüksək elmi olan mədəniyyət nümayəndələri olan adamlarla görüşlər keçirilir. Məktəbdəki mühit onlara həm nitqdə, həm yazıda mədəniyyət səviyyəsinin nümayişində faydalı təsir göstərə bilir. Amma onu da deyim ki, bu cür şagirdlərin sayı azdır. Təlim Azərbaycan dilində olan şagirdlərin sayı 150 mindirsə, 1500 nəfər təlimi rus dilindədir. Yəni bu müqayisəyə gəlmir. Amma hər halda ki, rus bölmələrinin şagirdlərinin azərbaycan bölməsinin şagirdlərinə nisbətən savadlı, mədəni olması faktı özlüyündə doğrudur”.

**Ə.Ağayev dərsliklərin də bu məsələdə təsirinin böyük olduğunu bildirdi:** “Azərbaycan dilində yazılmış dərsliklər olduqca mürəkkəbdir və anlaşılmır. Uşaqlar bu dərslikləri oxuyub qavraya bilmir. İndi deyə bilərlər ki, təlim rus dilində olan məktəblərdə də həmin dərsliklərin tərcüməsidir. Düzdür, amma oradakı müəllimlər təkcə bu dərsliklərlə kifayətlənmir. Rusiya məktəblərindən alınmış dərsliklərdən də istifadə edirlər. Məktəbdən kənar, müstəqil işlərdə bu dərsliklərdən istifadə edirlər. Azərbaycan dilindən rus dilinə tərcümə edilmiş dərsliklər isə sadəcə olaraq, stol üzərində qalır. Dərsdə istifadə etdikləri həmin işlək və xalis rus dilində yazılmış dərsliklərdir. Bu cür amillər var və gələcəkdə bu barədə düşünmək lazımdır. Təlim Azərbaycan dilində olan siniflərdə də dərsliklərin asan, qavranılan dildə yazılması, şagirdlər üçün anlaşılan olması məsələsi həyata keçirilsə, həmçinin Azərbaycan bölməsi olan məktəblərdə ”baxım-görüm", formalizm aradan qaldırılsa, düşünürəm ki, burada da keyfiyyəti qaldırmaq olar. Azərbaycan dilində oxuyanların hamısı elə deyil. Yaxşı məktəblərimiz də var. Azərbaycan dilli məktəblərin sayı çox olduğu üçün bu məsələ qabarır. Müəllimin keyfiyyəti məsələsi də var. Təlimi rus dilində olan məktəblərin müəllim keyfiyyəti yüksəkdir. Amma Azərbaycan dilində olanlarda yüksək deyil. Təsadüfi adamlar da var ki, müəllim işləyir. Bu cür hallar yığışdırılmalıdır".

❑ **Günel MANAFLI**

# Mənzil bazarında enmə - qiymətlər ilin sonunadək düşəcək

## Ekspertlər əmlak bazarındakı durumun həm xarici, həm də daxili amillərlə bağlı olduğunu açıqlayır, ancaq...

**Milli valyutanın ötən il kəskin şəkildə dəyərsizləşməsi tikinti və mənzil bazarına da ciddi təsir göstərib. Əmlak bazarında qiymət enməsi müşahidə edilir. Ekspertlərə görə, köhnə binaların sökülməsi də əmlak bazarına təsirsiz ötüşməyəcək.**



Qeyd edək ki, paytaxtın bəzi yerlərində binaların söküntüsü ilə bağlı Fövqəladə Hallar Nazirliyi açıqlama verib. Ekspertlər bunu tikinti şirkətlərindən məhdudiyyətsiz həcmdə söküntü və tikinti işləri haqda təkliflər qəbul ediləcəyi kimi dəyərləndirirlər. Təklifə əsasən, tikinti şirkəti öz vəsaiti hesabına binanı sökür və yerində yenisini tikir. Tikinti şirkəti bu halda layihələndirməni elə aparmalıdır ki, həm orda yaşayan insanları evlə təmin etsin, həm bütün xərcləri çıxartsın, həm də sonda mənfəət əldə etsin. Bu isə mərtəbənin çoxluğu və torpaq sahəsindən optimal istifadə hesabına mümkün olacaq. Dövlət birbaşa olaraq tikinti prosesinin özünə pul xərcləməyəcək, ancaq infrastruktur təminatı və inzibati dəstəyi həyata keçirəcək.

**İqtisadçı-ekspert Rəşad Əliyev məsələ ilə bağlı bildirib ki, bazarda mövcud olan durum bu layihələrin cəlbediciliyini azaldır:** “Çünki hazırda tikinti şirkətlərinin üzləşdiyi ən böyük problem satışdır. Satış yoxdursa, qazanc da sual altında qalır. Bu şəraitdə sözsüz ki, həmin mənzillərin satışının ipoteka kreditləşməsi vasitəsilə aparılması böyük yardım ola bilər. Bunun üçün isə maliyyə mənbələrinə ehtiyac var. Buna görə də bu istiqamətdə dövlətin dəstəyinə yenə ehtiyac olacaq. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, binaların söküntüsü və yerində yeni binaların tikintisi maliyyə baxımından çox fərqli nəticələr verir. Yəni elə ərazilər və elə binalar olacaq ki, tikinti şirkəti üçün qazanc əldə etmək imkanları olmayacaq. Buna görə də həmin binalara maraq olmayacaq”.

Əksər ekspertlərə görə, artıq mənzillərin qiyməti kəskin şəkildə düşüb və ilin sonuna kimi prosesin davam etməsi gözlənilir. Ölkə üzrə qiymətlərin ötən il 24-28 faiz azaldığı bildirilir. Təklifin azalmasından əvvəl tələbat da azalıb və bu proses artıq zəncirvarı xarakter alıb. Nəticədə bazarda durğunluq yaranıb. Ekspertlər mənzillərin ucuzlaşmasının 2016-cı ilin sonuna qədər davam edəcəyini proqnozlaşdırırlar.

**Ekspert Nüsrət İbrahimov da bildirib ki, qiymətlərdə eniş hələ bir müddət davam edəcək. Onun sözlərinə görə, hazırda əmlak bazarında qiymətlər 22 faiz, konkret mənzil bazarında isə 26 faiz azalma var. Onun sözlərinə görə, əmlak bazarındakı durum həm xarici, həm də daxili amillərlə bağlıdır:** “Xarici amil kimi buna neftin qiymətinin düşməsi, həmçinin Rusiyadan gələn pul kütləsinin azalması təsir edir. Daxili amillər insanların psixoloji baxımdan neqativ gözləntiləridir, insanlar əllərindəki vəsaiti xərcləməyə qorxurlar”.

Qeyd edək ki, artıq tikinti şirkətləri evlərin kreditlə satışında güzəştlər etməyə başlayıblar. Ekspertlər bunu gözlənilən addım hesab edirlər. Yəni artıq tikinti şirkətləri qiymətləri real qiymətlər səviyyəsinə endirməklə müştəri cəlb etmək istəyirlər. Mütəxəssislərin fikrincə, bundan sonra da neftin qiyməti düşərsə, evlərin qiymətlərinin ucuzlaşması qaçılmaz olacaq.

❑ **RÖYA**

# Bu gündən birinci sinfə şagird qəbulu başlayır

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
BAKI ŞƏHƏRİ ÜZRƏ
TƏHSİL İDARƏSİ

**Təhsil nazirinin müvafiq əmrinə əsasən 2016-2017-ci dərs ili üçün Bakı şəhərinin ümumtəhsil məktəblərinin və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyaların I sinfinə şagird qəbulu bu il də elektron sistem vasitəsilə həyata keçiriləcək.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən (BŞTİ) APA-ya verilən xəbərə görə, ümumtəhsil məktəblərinin I siniflərinə qəbul üçün valideynlərin (digər qanuni nümayəndələrin) elektron ərizələrinin bu sistemdə qeydiyyatı 2016-cı il martın 1-dən sentyabrın 15-dək www.mektebeqebul.edu.az saytı vasitəsilə aparılacaq.

Bildirilib ki, qeydiyyat valideynin (digər qanuni nümayəndənin) özü tərəfindən onlayn və ya istəyi əsasında hər bir məktəbdə yaradılacaq elektron sənəd qəbulu komissiyasında, ya da Bakı şəhərinin inzibati rayonlarında fəaliyyət göstərəcək alternativ sənəd qəbulu komissiyası tərəfindən aparılacaq.

Qeyd olunub ki, 2015-2016-cı dərs ilində Bakı şəhərinin ümumtəhsil məktəblərində, eləcə də Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalarda I sinfə şagird qəbulu Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən ərizələrin onlayn qeydiyyatı aparılmaqla, elektron sistem vasitəsilə həyata keçirilib, həmin müəssisələrdə I sinfə 44 minə yaxın uşaq qəbul edilib.

# YENİ MÜSAVAT

## Son səhifə

N 48 (6369) 1 mart 2016


# Hindistan manyakının sirri bilinmir



Hindistanın Maharaştra əyalətində yaşayan kişi evdəki 14 nəfəri öldürdükdən sonra intihar edib. Bölgənin polis şöbəsinin rəisi Asok Jadjaz mətbuata verdiyi açıqlamada Hasnail Anvar Varekar adlı kişinin evdəki 14 nəfəri öldürdükdən sonra intihar etdiyini açıqlayıb. Anvar Varekar cinayətləri törətdikdən sonra özünü asıb. Hadisənin səbəblərini bilmədiklərini deyən polis rəisi Varekarın bacısının sağ qaldığını deyib. Onun ayıldıqdan sonra nə baş verdiyini açıqlayacağı gözlənilir. Ölənlərin cəsədləri üzərində araşdırmalar başa çatdıqdan sonra onlar dəfn ediləcək.



## Arıqlamağın ən asan üsulu tapıldı

Arıqlamağın ən asan üsulu tapılıb. Alimlər sübut ediblər ki, yumurta ilə arıqlamaq mümkündür. Son zamanlar belə bir düşüncə mövcuddur ki, toyuq yumurtası xolesterin mənbəyidir. Hətta yumurta çox ağır və kalorili qidadır. Lakin Liverpul Universitetinin alimi doktor Nikolas Xarman yumurta üzərində kiçik bir təcrübə keçirərək sübut edib ki, gün ərzində iki yumurta yemək qanda xolesterinin qalxmasına səbəb olmur. Alimlər təcrübə üçün orta yaş həddi 44 olan 450 nəfər insanı 2 qrupa ayırıblar. 1-ci qrup 12 həftəlik yumurtasız pəhriz , 2-ci qrup isə gün ərzində iki yumurta yeməklə pəhriz saxlayıb. 1-2 həftədən sonra hər iki qrup demək olar ki, eyni nəticəni göstərib, 3,5 və 4,5 kilo itirib. Bununla yanaşı, hər iki qrup insanın qanında xolestrenin səviyyəsi 0,2- 0,16 % azalma müşahidə olunub. Bu nəticədən sonra mütəxəssislər belə qərara gəliblər ki, arıqlamaq istəyən insanlar yumurtadan imtina etməsinlər. Digər tərəfdən də yumurta proteindir, idmanla məşğul olduğunuz zaman qısa bir müddətdə yaxşı bədən forması yaratmağa, əzələləri möhkəmləndirməyə köməklik edir.

# Bu qidalar adamı tez qocaldır

**Hər gün yeyilən bəzi qidalar insanı tez qocaldır.**

**Şəkər** dərini sürətlə yaşlandıran qidaların önündə gəlir. Dərinin yorğun görünməsinə və qırışların yaranmasına səbəb olur. Dəridəki kollagen və elastinlərə zərər verən şəkər dərinin elastik və canlı duruşunu pozur. Dəridəki kollagenlər zərər görməyə başladığında bir daha bərpa olunmaz və dəri yaşlanar. Keks, şokolad, hətta makaronlar da şəkər tərkiblidir. Hər qidanın şəkər miqdarına diqqət edin. Duz dəriyə çox böyük ölçüdə zərər verməz, ancaq pis görünməsinə səbəb olar. Göz altı göyərmələr, halqalar və şişkinliklərə duz səbəb ola bilər. Çips, dondurulmuş kartof, makaron sousları kimi qidalar çox duz tərkibli olduğundan əzələlərinizə mənfi təsir edər. Saxta dadlandırıcılar bağırsaq florasını dəyişdirərək həzmə mənfi təsir edir. Gizli şəkərə səbəb olur.

Yağlı ətlər, süd məhsulları və Hindistan qozu kimi çox yağ tərkibli qidalar damarların sərtləşməsinə və yaşlanmaya səbəb olur. Doymuş yağ tərkibli qidalar yalnız ürək sağlamlığına mənfi yöndə təsir etmir, həm də irəli yaşlarda ortaya çıxan dəri ləkələrinə də səbəb olur.





## Pişik saxladığı üçün məhkəməyə çıxarıldı

Fransada yaşayan və evində 113 pişik saxlayan qadın məhkəmə qarşısına çıxarılıb. "Est Republicain" qəzetinin xəbərinə görə, ölkədəki heyvanları qoruma dərnəklərindən biri evində 113 pişik saxlayan qadını polislərə şikayət edib. Çünki qadın uzun müddət imiş ki, evində pişik saxlayırmış. Maddi vəziyyəti pis olan qadın son zamanlarda onlara yemək ala bilməyib və bir çoxu ölüb. Daha sonra isə ev kirayəsini ödəyə bilmədiyi üçün yaşadığı evdən qovulub. Pişiklərin bir çoxunun peyvənd edilib-edilmədiyi bilinmir və bu səbəbdən də polislər tərəfindən nəzarətə götürülüb. Baxa bilməyəcəyi heyvanları evində saxlayıb, onlara pis davrandığı iddia edilən qadın onlar üçün 750 avro xərclədiyini deyib. Ev sahibi də pişiklərin evi xarabaya çevirdiyini deyərək qadından şikayət edib.




**QOÇ** - Sevgidə mövcud olan soyuqluğu aradan qaldırın. İmkan verməyin ki, davranışlarınız dedi-qodu səviyyəsində formalaşsın. Təcrübəli adamlarla işbirliyi qurmaqdan çəkinməyin.

**BUĞA** - Maraqlı hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, çoxdan bəri əlaqə saxlaya bilmədiyiniz adamlarla rastlaşasınız. Günün ikinci yarısında işlə bağlı riskə getmək olar.

**ƏKİZLƏR** - Həddindən ziyadə düşərli təqvimdir. Təxminən saat 12-dən 17-yə qədər rastlaşdığınız hər bir hadisə ürəyinizcə olacaq. Təzə xəbər və ya təkliflər də ala bilərsiniz. Qətiyyətli olun.

**XƏRÇƏNG** - "Hirsli başda ağıl olmaz"lığını yəqin ki, bilirsiniz. Xüsusən də günün birinci yarısını sakit tərzdə başa vurmağa çalışmalısınız. Axşamsa ürəkaçan hadisələrin iştirakçısına çevriləcəksiniz.

**ŞİR** - Özünüzü gərginliyə atmayın. Səmərəsiz danışıqlarda, sıxıntılı görüşlərdə iştirak etməkdən çəkinin. Əgər maraqlı heç nə olmasa, yaxın adamlarınıza baş çəkib süfrə başında "dərdləşin".

**QIZ** - Ulduzlar müdafiənizdə durub. Bu səbəbdən də Tanrıya xoş gedən bütün işləriniz müsbət sonluqla başa çatacaq. Səmərəli təkliflər, xoş xəbərlər ovqatınızı xeyli yüksəldəcək.

**TƏRƏZİ** - Bu gün sizə çoxsaylı fikir mübadiləsi aparmaq səmərə verəcək. Gələcək karyeranız məhz bundan asılıdır. Riskli işlərdənsə uzaq olun. Ailə-sevgi münasibətlərində inad etməyin.

**ƏQRƏB** - Gün ərzində bir neçə aktiv məqam yaşayacaqsınız. Hətta şəxsi büdcənizdə irəliləyişlər də mümkündür. Axşama yaxınsa sevindirici hadisələrin, xoş ovqatın şahidi olacaqsınız.

**OXATAN** - Kifayət qədər düşərli ərəfədir. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Amma kiməsə yalan vəd verməyin. Qonaq getmək sizə rahatlıq gətirə bilər.

**OĞLAQ** - Martın bu ilk yarpağı sizin üçün xüsusi əhəmiyyət kəsb edəcək. Ulduzların düzümü uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağı tövsiyə edir. Qərarlarınızda məsuliyyətli olun.

**SUTÖKƏN** - Ulduzlar əsəblərinizin sakitləşməsindən fərəh duyur. Əgər təmkininizi beləcə tənzimləsəniz, heç bir qanqaraçılıq olmayacaq. Gün ərzində maraqlı görüş və maddi irəliləyiş də gözlənilir.

**BALIQLAR** - Evdə oturmağa lüzum yoxdur. Çünki ailə üzvlərinizlə, eləcə də qonum-qonşularla mübahisə gözlənilir. Əsas diqqəti fəaliyyətə yönəldin ki, gözlənilən xoşagəlməzliklər baş verməsin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 2 cadugər müştərilərini qazanda qaynatdı



Çinin Quanyuan vilayətində qəribə hadisə baş verib. Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, özlərini cadugər adlandıran 2 kişi canında cin olduğunu deyən qadını taxta çəlləkdə bişirib. Xəbərə görə, Yuylun kəndindən olan Li soyadlı qadın uzun illər xəstəliklərdən əziyyət çəkib. O, Fan və Hu soyadlı iki cadugərə yardım üçün müraciət edib və cadugərlər onun içinə cin girdiyini bildiriblər. Qadını taxta çəlləyin içinə salaraq bişirən cadugərlər onun qışqırtısına toplaşan insanları səsin qadından deyil, onun içindəki cindən gəldiyinə inandırmağa çalışıblar. Sakinlər Lini çəlləkdən çıxararaq xəstəxanaya çatdırsalar da, o, yolda keçinib, cadugərlər isə həbs olunublar.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300